# QARABAĞ AZƏRBAYCANDIR!




## 2 Fevral Gənclər Günüdür!

4


SƏS
№ 019 (6702) 2 fevral 2023-cü il. Qiymәti 60 qәpik


## Azərbaycan-Türkiyə münasibətləri: təhsil sahəsində əməkdaşlıq



2

# Qafqaz uğrunda TƏHLÜKƏLİ OYUNLAR



3

## "BÖYÜK QAYIDIŞ": 30 İLLİK HƏSRƏTƏ SON!



7

## ƏDV-nin geri alınması hansı mənzillərə şamil olunur?



16

## Qərbi Azərbaycana qayıdışla bağlı konsepsiya hazırlanıb



11

## Molla rejiminin mərəzi



10

## "Çelsi" 121 milyon avroya futbolçu transfer etdi!

*İngiltərənin "Çelsi"futbol klubu "Benfika"nın futbolçusu Enzo Fernandeşi heyətinə qatıb. Qol.az xəbər verir ki, bu, İngiltərə tarixinin ən bahalı transferi kimi tarixə düşüb.*



16

# Azərbaycan-Türkiyə münasibətləri: təhsil sahəsində əməkdaşlıq



***Azərbaycanla Türkiyə dövlətləri arasında dostluq və qardaşlıq əlaqələri qədim tarixə malikdir. Əsrlər boyu Azərbaycan və türk xalqları həmişə bir-birinə dəstək olmuş, sıx əməkdaşlıq etmişdir. Azərbaycanın etibarlı strateji tərəfdaşı olan Türkiyə ilə münasibətlərin daha da möhkəmləndirilib genişləndirilməsi dövlət başçımızın həyata keçirdiyi xarici siyasətin prioritetini təşkil edir. Qarşılıqlı etimad, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri müasir dövrümüzdə daha da möhkəmlənir. Ulu Öndər Heydər Əliyevin bir millət, iki dövlət olaraq xarakterizə etdiyi Azərbaycan-Türkiyə dövlətləri arasındakı münasibətlər bu gün hər iki ölkə rəhbərliyi tərəfindən həyata keçirilən düzgün, məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq daha yüksək səviyyəyə çatıb, bir sıra sahələr üzrə isə keyfiyyətcə yeni müstəviyə keçib. Azərbaycan və Türkiyə arasında əlaqələrin belə səviyyədə inkişafı həm də regionun ümumi tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verir. Siyasi, iqtisadi, enerji, nəqliyyat - bütün sahələrdə çox böyük nailiyyətlər əldə edilib.***

Təhlil

Müasir dövrümüzdə Türkiyə və Azərbaycanın təşəbbüsü ilə ölkələrimiz və bütövlükdə bölgə üçün önəmli bir sıra layihələr həyata keçirilir. İkitərəfli iqtisadi münasibətlərin hərtərəfli inkişafı baxımından, həyata keçirilən tədbirlər, imzalanan müqavilələr xüsusi mərhələnin əsasını qoymuşdur. Ölkəmizin regional iqtisadi əməkdaşlığa verdiyi böyük əhəmiyyət və trans-regional infrastruktur layihələrində fəal iştirakının nəticəsi olaraq, iki ölkə arasında beynəlxalq əhəmiyyətli bir sıra regional layihələr həyata keçirilib. Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri və s. layihələri bu baxımdan ən yaxşı nümunələrdir. İki ölkənin təşəbbüsü ilə həyata keçirilən digər beynəlxalq əhəmiyyətli layihə TANAP Türkiyə və Avropa Birliyi ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsi və təchizatın diversifikasiyası baxımından böyük önəm daşıyır.

### TARİXİ KÖKLƏRƏ VƏ QARDAŞLIĞA SÖYKƏNƏN AZƏRBAYCAN VƏ TÜRKİYƏ ƏLAQƏLƏRİ

Görülən işlər, həyata keçirilən tədbirlər iki dövlət arasında əlaqələrin gücləndirilməsinə təkan verməklə yanaşı, Azərbaycanın rifahı və gələcək inkişafında önəmlidir. Təbii ki, bu uğurların reallaşmasında hər iki ölkənin dövlət və hökumət başçılarının, eləcə də siyasi, iqtisadi, ticarət, elm, təhsil, mədəniyyət və digər sahələr üzrə aidiyyəti qurumların rəhbərlərinin qarşılıqlı səfərləri ikitərəfli əməkdaşlığın inkişafında mühüm rol oynayır. Bu gün Türkiyə-Azərbaycan dostluğu dünyaya nümunədir. Ulu Öndər Heydər Əliyev tərəfindən möhkəm özüllər üzərində qoyulmuş dostluq və qardaşlıq münasibətləri Prezident İlham Əliyevin siyasi xəttinin prioritetini təşkil edir. Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" fəlsəfəsi ilə əsaslı təmələ sahib olan, tarixi köklərə və qardaşlığa söykənən, hər zaman həmrəylik nümayiş etdirən Azərbaycan və Türkiyə arasında əlaqələr siyasi, iqtisadi-ticarət, humanitar, hərbi və digər sahələrdə uğurla davam edir. Bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də ölkələrimiz arasında əlaqələr daim inkişaf edir. Müasir dövrün tələbləri sırasında elm, təhsil sahəsində inteqrasiyanın dərinləşdirilməsi, bu sahədə əməkdaşlığın genişləndirilməsi də mühüm yer tutur. Bu baxımdan yüksəkixtisaslı kadr hazırlığı məqsədilə xarici ölkələrin, xüsusilə Türkiyənin qabaqcıl ali təhsil müəssisələri ilə əməkdaşlıq əlaqələrinin davamlı inkişaf etdirilməsi universitetlərin prioritet istiqamətləri kimi müəyyənləşdirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Türkiyə Respublikasının milli təhsil naziri Mahmut Özeri və Türkiyə Böyük Millət Məclisinin (TBMM) bir qrup üzvünü videokonfrans formatında qəbul edərək Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini bildirib. Cənab Prezident Mahmut Özerin və Türkiyə Böyük Millət Məclisinin bir qrup üzvünün ölkəmizə səfərinin önəminə toxunaraq, bu səfərin əlaqələrimizin daha da genişlənməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu bildirib. Təhsil sahəsində əməkdaşlıqda böyük nailiyyətlərin əldə olunduğunu bildirən Prezident İlham Əliyev iki ölkənin dövlət başçılarının razılaşdırdığı kimi Azərbaycan-Türkiyə birgə universitetinin yaradılmasının böyük önəm daşıdığını bildirib.Təhsil sahəsində əlaqələrimizin son illərdə çox sürətlə inkişaf etdiyini deyən Mahmut Özer Türkiyənin bu sahədə ölkəmizlə təcrübəsini bölüşməkdən məmnunluq hissi keçirdiyini bildirib. Azərbaycanda təhsil alan 90 ölkənin əcnəbi tələbələri arasında Türkiyə vətəndaşlarının sayı 40 faiz çoxdur. Türkiyədə isə 23 mindən artıq Azərbaycan vətəndaşı təhsil alır.Bir əsrlik tarixə malik Qazi Universiteti ilə yerli ali təhsil müəssisələrimiz arasında imzalanan əməkdaşlıq müqavilələri və aparılan müzakirələr Azərbaycan və Türkiyə universitetləri arasında əməkdaşlığın inkişafına öz töhfəsini verir. Birgə tədqiqatların aparılması, tələbə-müəllim mübadiləsi və mütəxəssislərin cəlb olunması sahəsində əlaqələri daha da genişləndirilir. Təhsil sahəsində səmərəli və fəal əməkdaşlıq, qarşılıqlı inam, etimad və dəstəyə əsaslanan ardıcıl mövqe və fəaliyyət ölkələrarasında elmin və təhsilin inkişafına xidmət edir.

Onu da bildirək ki, görüşdə Şimali Kipr Türk Respublikasının Türk Dövlətləri Təşkilatının Səmərqənddə keçirilən Zirvə toplantısında təşkilat yanında müşahidəçi statusunun alınması prosesində üzv dövlət kimi Azərbaycanın göstərdiyi dəstəyə görə minnətdarlıq da ifadə olunub.

### MÖHKƏM ÖZÜLLƏR ÜZƏRİNDƏ QOYULMUŞ DOSTLUQ VƏ QARDAŞLIQ MÜNASİBƏTLƏRİ

Mahmut Özer Azərbaycan Respublikasının Tehrandakı səfirliyinin binasında törədilən terror aktı zamanı mühafizə xidmətinin rəhbəri Orxan Əsgərovun həlak olması ilə bağlı Prezident İlham Əliyevə başsağlığı verib. Çox təəssüfləndirici haldır ki, dünyanın inkişaf etmiş bir dövründə terrorizmin acı nəticələrini yaşayırıq. Müasir dünyanın toqquşduğu təhlükəli problemlərdən bir olan terror siyasi, iqtisadi, mənəvi-psixoloji gərginlik yaratmaqla yanaşı, dinc insanların qanın axmasına da səbəb olur. Sülh və təhlükəsizliyin qarantına çevrilən Azərbaycan bu gün bəşər svilizasiyasına öz töhfəsini verdiyi bir zamanda terror aktları ilə qarşılaşır. Yanvarın 27-də səhər saatlarında ölkəmizin İran İslam Respublikasındakı səfirliyinə silahlı hücum edilməsi əlbəttə ki, müasir dünya insanın vəhşiliyinin nümunəsidir. Əlbəttə ki, səfirliklər hər bir dövlətin daxilində digər bir ölkəni təmsil edir və təhlükəsizliyindən yerləşdiyi ölkənin hüquq mühafizə qüvvələri cavabdehlik daşıyırlar. Prezident İlham Əliyev səfirliyin digər mühafizə əməkdaşının qəhrəmanlığı nəticəsində terrorçunun zərərsizləşdirildiyini və bununla da silahlı şəxsin səfirliyin başqa əməkdaşlarına və onların ailə üzvlərinə hücumunun qarşısının alındığını vurğulayıb. Dövlətimizin başçısı hazırda Azərbaycan tərəfindən bu terror aktının hərtərəfli şəkildə araşdırıldığını diqqətə çatdırıb. Həmin şəxsin səfirliyimizin binasında törətdiyi terror hadisəsi prosesinin xeyli vaxt çəkməsinə baxmayaraq, İranın polis və təhlükəsizlik qüvvələri tərəfindən hər hansı ciddi tədbir görülməyib.Görülən işlər, həyata keçirilən tədbirlər iki dövlət arasında əlaqələrin gücləndirilməsinə təkan verməklə yanaşı, Azərbaycanın rifahı və gələcək inkişafında önəmlidir. Təbii ki, bu uğurların reallaşmasında hər iki ölkənin dövlət və hökumət başçılarının, eləcə də siyasi, iqtisadi, ticarət, elm, təhsil, mədəniyyət və digər sahələr üzrə aidiyyəti qurumların rəhbərlərinin qarşılıqlı səfərləri ikitərəfli əməkdaşlığın inkişafında mühüm rol oynayır. Bu gün Türkiyə-Azərbaycan dostluğu dünyaya nümunədir. Ulu Öndər Heydər Əliyev tərəfindən möhkəm özüllər üzərində qoyulmuş dostluq və qardaşlıq münasibətləri Prezident İlham Əliyevin siyasi xəttinin prioritetini təşkil edir.Türkiyə qardaş, dost ölkə olaraq hər zaman Azərbaycanın yanında oldu.

Təbii ki, buna qədər də Türkiyə Azərbaycanın yanında olduğunu əməli fəaliyyətdə sübut etmişdir. Türkiyə Qarabağ münaqişəsinin həlli işində daim Azərbaycana böyük dəstək göstərmiş, dünya miqyasında bu məsələ ilə bağlı Azərbaycana böyük dəstək vermişdir. Azərbaycan ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal altında saxlanmasına hər zaman etirazını bildirmiş, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində xüsusi fəallıq göstərmişdir. Göründüyü kimi, Türkiyə-Azərbaycan əlaqələri daimidir və bu əlaqələr daim yüksələn xətt üzrə inkişaf edərək, demək olar ki, bütün sahələri əhatə edir.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Rəsmi xronika

Prezident İlham Əliyev Gənclər siyasəti sahəsində fəallığı ilə fərqlənən şəxslərin təltif edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Finlandiya Statistika İdarəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 16 dekabr tarixli 695-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 11 aprel tarixli 564 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Daşınar əmlakın rəsmi reyestrlərində qeydiyyata alınan əmlak növlərinin və onların qeydiyyatını aparan inzibati orqanların Siyahısı"nda dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev "Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksinin tikintisinin sürətləndirilməsi sahəsində əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 aprel tarixli 2813 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında Sərəncam imzalayıb.

# Qafqaz uğrunda TƏHLÜKƏLİ OYUNLAR

***Avropa İttifaqının Ermənistandakı missiyasının strukturu mülki missiyaya deyil, hərbi kontingentə bənzəyir. Guya ki, strateji məqsəd Ermənistanın guya münaqişədən zərər çəkmiş və sərhədyanı ərazilərində insidentlərin sayını, belə ərazilərdə yaşayan əhali üçün risk səviyyəsini azaltmağa kömək etmək, təhlükəsizlik vəziyyəti haqqında ətraflı məlumatlılıq nəzərdə tutulur. Amma heç də belə görünmür və təəssüratlar tamamilə başqa məqamlardan xəbər verir və bütün bunlar təhlükəli oyun kimi görünür.***



Avropa İttifaqının Ermənistandakı missiyasının strukturu mülki missiyaya deyil, hərbi kontingentə bənzəyir. Guya ki, strateji məqsəd Ermənistanın guya münaqişədən zərər çəkmiş və sərhədyanı ərazilərində insidentlərin sayını, belə ərazilərdə yaşayan əhali üçün risk səviyyəsini azaltmağa kömək etmək, təhlükəsizlik vəziyyəti haqqında ətraflı məlumatlılıq nəzərdə tutulur. Amma heç də belə görünmür və təəssüratlar tamamilə başqa məqamlardan xəbər verir və bütün bunlar təhlükəli oyun kimi görünür.



Missiyanın rəhbəri 2020-ci ildən bu zamana qədər Ştutqart polis idarəsinin rəisi vəzifəsində çalışan alman əsilli Markus Ritter olacaq. Ritterin geniş "təcrübəsi" var, özü də müxtəlif istiqamətlərdə. Bu "təcrübə" polisin deyil, daha çox hərbçinin təcrübəsinə oxşayır. Bələki, Markus Ritterin Avropa İttifaqının İraqdakı məsləhət missiyasına rəhbərlik etdiyi, Avropa İttifaqı və Beynəlxalq Millətlər Təşkilatının Cənubi Sudan, Gürcüstan və Kosovodakı missiyalarında xidmət etdiyi, həmçinin Əfqanıstandakı Almaniya səfirliyində polis müşaviri olduğu bəlli olub. Bəlkə də missiyada Almaniya nümayəndəsinin olması Fransa ilə Almaniya arasında razılaşdırılmış bir oyundur ki, Parisin burada olma niyyətləri gizlədilsin. Lakin Fransanın da bu missiyada öz nümayəndəsi var və Çarlz Fris adlı həmin şəxs Avropa İttifaqı tərəfinin bütün əməliyyatlar üzrə kuratorudur. Ən çox diqqət çəkən isə, Avropa İttifaqının missiyası əməkdaşlarının böyük əksəriyyətinin müxtəlif Qərb ölkələrində hərbi elit bölmələrinin istefada olan və aktiv kəşfiyyatçıları olmasıdır.

Missiyada olanlar arasında rus dilini bilən polyaklar və baltlar çoxluq təşkil edirlər ki, bu da təsadüfi deyil.

Maraqlı məqamlardan biri də odur ki, missiya rəsmi olaraq "Avropa İttifaqı missiyası" adlandırılsa da, onun faktiki idarə edilməsi keçən ildən Bosniya və Əfqanıstanı idarə edən ABŞ Hərbi Hava Qüvvələrinin generalı Kristofer Kavolinin rəhbərlik etdiyi NATO-nun Avropadakı Ali Komandanlığı ilə sıx koordinasiya əsasında həyata keçirilir. ABŞ-ın alyansdakı dominant rolunu nəzərə alsaq, NATO ilə birbaşa əlaqə maraqlı suallar doğurur. Eləcə də missiyanın nəzdində informasiya-psixoloji əməliyyatlar mərkəzinin (CIPSO) fəaliyyət göstərəcəyi, onun məqsədinin Ermənistanda Rusiyanın təsirini yatırmaq, rusiyayönlü siyasətçiləri gözdən salmaq və Ermənistan Respublikasında anti-Rusiya əhval-ruhiyyəsini artırçaq olacağından xəbər verir. Qərarın 10-cu maddəsində məxfilik bəndinin olması da bu baxımdan təsadüfi deyil.

Avropa İttifaqı missiyasının məqsədləri heç də aydın görünmür və tamamilə qaranlıq məqamlar barədə təəssürat yaradır. Yayılan məlumatlara görə, missiyanın arxasında duran qüvvələrin məqsədi Ermənistan ordusu, o cümlədən Ermənistan xüsusi təyinatlıları üçün hərbi təlim proqramları hazırlamaqdır, baxmayaraq ki, buna nail olub-olmayacaqları hələ sual altındadır. Eləcə də Ermənistan Xarici Kəşfiyyat Xidmətinin nəzdində sıfırdan yaradılacaq xüsusi təyinatlılar üçün ayrıca proqram da nəzərdə tutulub. Yeri gəlmişkən, missiyanın ən son kəşfiyyat avadanlıqları, o cümlədən Amerika istehsalı olan müasir PUA-larla təchiz olunacağı gözlənilir ki, burada əsas kəşfiyyat hədəflərinin İran və Türkiyə olacağı ehtimal olunur. Bütün bunlar onu göstərir ki, missiya heç də mülki xarakter daşıyana oxşamır.



## Missiyanın məqsədləri nə ola bilər?

Missiyanın reallıqda hansı məqsədlər daşıdığı sualı hər kəsi düşündürür. Xüsusən də bizə düşmən kəsilən bir ölkədə fəaliyyətə başlayan missiya diqqətlə izlənilməlidir. Ola bilsin ki, missiyanın ən ali və prioritet məqsədi regionda Rusiyaya qarşı kəşfiyyat fəaliyyəti aparmaq, həmin ölkəni Ermənistandan sıxışdırıb çıxarmaq, xüsusən də oradakı rus kontingentini, ələlxüsus Rusiya hərbi bazasının yaxın iki il ərzində Gümrüdən uzaqlaşdırmaqdır. Bu da səbəbsiz deyil. Ümumiyyətlə, Avropa İttifaqı missiyasının Ermənistana ötürülməsində Avropanın, xüsusən Fransanın maraqları görünür. Bu da onu deməyə əsas verir ki, Avropa İttifaqı ölkələrinin, xüsusən Fransanın Ermənistanda uzunmüddətli hərbi bazasının yaradılmasına çalışılacaq.

Sözügedən missiyanın digər məqsədi İrana qarşı kəşfiyyat fəaliyyətinin qurulması ola bilər. Çox ehtimal ki, İrana qarşı təxribat əməliyyatlarının idarə edilməsi məhz Ermənistandan həyata keçiriləcək. Ona görə də İran bu barədə ciddi şəkildə düşünməlidir. Rəsmi Tehran bilməlidir ki, Ermənistana etibar etməkdə, Azərbaycanla münasibətlərin zərərinə Ermənistanla yaxınlaşmaqda böyük, özü də strateji səhvə yol verir. Ona görə ki, İran özü üçün strateji təhlükəni Azərbaycandan deyil, bundan sonra məhz Ermənistandan gözləməli olacaq. İran üçün ən böyük regional təhlükə mənbəyi indi artıq Ermənistan hesab olunur. Rəsmi Tehran bunu nə qədər tez başa düşsə bir o qədər xeyrinədir.

Sözsüz ki, missiyanın ən əsas, ən prioritet məsələsi və məqsədi regionda Türkiyə-Azərbaycan tandeminə mane olmaqdır. Hətta 44 günlük müharibə zamanı və ondan sonra Azərbaycan tərəfi ilə təmaslar zamanı Fransa müxtəlif kanallarla açıq şəkildə bəyan etdi ki, onun əsas problemi Türkiyənin mövqelərinin möhkəmlənməsidir. İndi missiyanın həm də Zəngəzur dəhlizi ilə bağlı öz planları da ola bilər. Çox güman ki, həmin dəhlizin açılmaması üçün çalışa bilər və ən azından dəhlizə nəzarət barədə planları var. Deməli, çox təhlükəli oyunlar barədə planlar qurulur.

Bəli, Cənubi Qafqaz üçün çox təhlükəli geosiyasi oyunlar qurulur. Özü də təhlükəli oyunlar. Qərb Ermənistandan bir alət kimi istifadə edir. Regionda, eləcə də dünyada qüvvətlənən Türkiyə-Azərbaycan tandeminə qarşı Ermənistan bir alətə çevrilir. Elə ermənilər də sən demə çoxdandır bu siyasətə alət olmağa hazır imişlər. Onsuz da alət olmağa öyrəncəli olan bir toplumun bu xüsusiyyətindən məharətlə istifadə olunur. Amma ermənilər dərk etmirlər ki, Ermənistanı Cənubi Qafqazda Livanın vəziyyəti gözləyə bilər. Bu işğalçı ölkəni Suriyanın taleyi gözləyə bilər ki, bu barədə ermənilər indidən hesablarını getməlidirlər. Heç şübhəsiz ki, Azərbaycan və Türkiyə bu barədə yaxşıca hazırlıqlıdırlar və missiya nə qədər təhlükəli oyun oynasa da zərbəsi Ermənistana dəyəcək. Bu təhlükəli oyun daha çox erməniləri narahat etməlidir, çünki onsuz da hayların bir gücü qalmayıb, hay-hayları gedib, belə görünür ki, vay-vayları qalır.

Qafqaz uğrunda böyük mübarizə yenidən başlayır. Eyni ilə bir zamanlar olduğu kimi, yenə də Ermənistan alətə çevrilir. Tarixin təkrarlandığı barədə çox eşitmişik. Görünür yenə də tarix təkrarlanır və yenə də Avropa Qafqazda təhlükəli oyunlara rəvac verir. Amma bu dəfə Azərbaycan da, Türkiyə də keçmişdə gördüklərinə görə böyük təcrübəyə sahibdi. Heç də Avropa əvvəlki kimi nətəcələr əldə edəcəyinə ümid etməsin. Ermənistanın özünün də belə oyunlardan dividentlə çıxacağı barədə düşünməyə haqqı yoxdur. Rəsmi İrəvan indi bu təhlükəli oyunlara görə çox qorxmalı, ehtiyat etməlidir. Əvvəla ona görə ki, müqavimət qabiliyyəti sıfırın ətrafındadır, heç bir dözüm göstərmək imkanı da qalmayıb. Digər tərəfdən bu ölkənin daxilində olan missiyanın təhlükəli oyunu ilk növbədə elə həmin ölkənin özünü zərbə altında qoyacaq. Əgər Ermənistan hakimiyyətinin zərrə qədər düşüncəsi, uzaqgörənliyi olsaydı həmin o Avropa İttifaqı missiyası altında ölkələrinə "təşrif buyuranları" yaxına buraxmazdılar, çünki təhlükəli oyunlarının birbaşa zərbəsi altında özləri qalmalı olacaqlar. Hər bir halda Qafqaz uğrunda təhlükəli oyunlara start verildiyi göz önündədir. Amma bu oyunlar o demək deyil ki, oyunçular qalib çıxacaq, yaxud məqsədlərinə nail olacaqlar. Onların gələcəkləri varsa, görəcəkləri də var. Çünki nə Azərbaycan, nə də Türkiyə onların bir zamanlar bu regionda təhlükəli oyunlar oynadıqları zaman gördükləri ölkələr deyil, böyük gücə, potensiala, imkanlara malik söz sahibləri və regionun lider dövlətləridir.

***İnam Hacıyev***

# 2 Fevral Gənclər Günüdür!

## *Prezident İlham Əliyev: "Bizim gənclərimiz hərbi qələbələrimizi şərtləndiriblər"*




***Müstəqil Azərbaycan dövlətinin gəncləri vətənpərvər gənclərdir. Cəmiyyətin aparıcı qüvvəsinə çevrilən gənclər daim axtarışda olan, yeniliyi sevən bir qüvvədir. Bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən gənclər siyasəti yeni mərhələsini yaşayır. Yeni mərhələdə dövlət başçısı tərəfindən gerçəkləşdirilən gənclər siyasəti ən müxtəlif sahələri əhatə etməklə, geniş spektrlidir. Belə ki, bu siyasət gənclərin tərbiyəsi, sağlamlığı, təhsili, intellektual və mənəvi inkişafı, asudə vaxtının səmərəli təşkili, həmçinin, gənclərin cəmiyyət həyatının bütün sahələrində fəal iştirakı ilə bağlı məsələləri əhatə edir.***





Gənclər siyasəti hər zaman dövlət siyasətinin mühüm tərkib hissəsi olmuşdur. Gənclər dövlət qayğısını daim öz üzərlərində hiss edərək, nailiyyətləri ilə onlara göstərilən qayğını doğrultmağa çalışırlar. Qətiyyətlə vurğulaya bilərik ki, Azərbaycan gəncliyi bu gün bütün tələbatlara cavab verən müasir gənclikdir. Gənclər unutmamalıdırlar ki, gənclik ölkənin gələcəyinin qarantı və təminatıdır. Gənclik böyük bir qüvvədir və üzərinə məsuliyyət düşür. Bildiyimiz kimi, indiyə qədər gənclər siyasətinə dair bir sıra dövlət proqramları qəbul olunmuşdur. Bu proqramlar ölkəmizdə gənclər üçün infrastrukturun yaradılmasından başlamış, onların xaricdə təhsilinə, yaradıcı və elmi fəaliyyətlə məşğul olan gənclərlə yanaşı, kütləvi idmanı təbliğ etməklə, sağlam gəncliyin formlaşmasına töhfə verməklə çox geniş spektri əhatə edir. Dövlət proqramlarının nəticəsi olaraq, yeni-yeni gənc liderlər yetişmiş, yaranmış və onlar bu və ya digər sahədə Azərbaycan dövlətinə, o cümlədən, gəncliyimizin inkişafına bu gün də töhfə verməkdədirlər.

### AZƏRBAYCANIN GƏLƏCƏYİ ÜÇÜN YENİ-YENİ MÜTƏXƏSSİSLƏR HAZIRLANIRDI

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət-gənclər siyasəti, sovet məkanında yaşadığımız illərə təsadüf edir. Belə ki, Ümummilli Lider Heydər Əliyev ötən əsrin 70-80-ci illərində Azərbaycan gənclərinin cəmiyyətin inkişafında rolunu artırmaq, ölkənin gələcək inkişafında iştirakını və məsuliyyətini yüksəltmək istiqamətində məqsədyönlü gənclər siyasətini həyata keçirib. Heydər Əliyevin 1969-1982-ci illərdə respublikaya rəhbərlik etdiyi dövrlərdə yüzlərlə yeni tədris ocaqları, gənclik mərkəzləri, hərbi məktəblər açılmış, minlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almış, müasir ixtisaslara yiyələnmişdir. Heydər Əliyevin şəxsi təşəbbüsü və qayğısı sayəsində o zamanlar Sovetlər İttifaqının 50-dən artıq iri şəhərinin 170 nüfuzlu ali məktəbində bütövlükdə 80-dək sahəni əhatə edən 150 ixtisas üzrə 15 mindən çox azərbaycanlı gəncin ali təhsil almasına, yüksək ixtisaslı mütəxəssis kimi hazırlanmasına imkan və şərait yaradılmışdır. Azərbaycan gənclərinin birinci forumunda Heydər Əliyev demişdir: "Bütün bunların hamısı o vaxtlar Azərbaycanın gələcəyi üçün yeni-yeni mütəxəssislər hazırlamaq məqsədi daşımışdır. Bu işə biz hələ 70-ci ildən başlamışdıq. Mən bu gün çox məmnuniyyət hissi ilə qeyd edirəm ki, bu, şəxsən mənim təşəbbüsümlə olmuşdur. Mən hələ o vaxtdan ölkəmizin gələcəyini düşünürdüm".

1999-cu ilin başlanğıcı da Azərbaycan gəncləri üçün əlamətdar oldu. Mart ayının 2-3-də Azərbaycan gənclərinin ikinci forumu keçirildi. Bu forumda birinci forumdan keçən üç il ərzində görülmüş işlərə yekun vurmaqla yanaşı, müstəqil dövlət quruculuğu yolunda gənclərin üzərinə düşən böyük vəzifələri müəyyən etdi. Respublikanın ictimai-siyasi həyatında gənclərin daha fəal iştirakı üçün şəraitin yaradılması, dövlət orqanlarının diqqətini gənclik problemlərinin həllinə yönəltməklə bağlı tövsiyələr irəli sürüldü.

Ulu Öndər Heydər Əliyev Azərbaycanda müstəqillik dövründə gənclər siyasətinə önəm verərək, onların təşkilatlanmasına xüsusi diqqət ayırıb, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünün qorunması, ölkədə hüquqi-demokratik dövlət quruculuğu prosesində gənclərin rolunun müstəsnalığı nəzərə alınaraq, vahid gənclər siyasəti hazırlanıb, həyata keçirildi.

### VAHİD GƏNCLƏR SİYASƏTİ HAZIRLANIB HƏYATA KEÇİRİLDİ

Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra, ölkəmizdə milli-mənəvi dəyərlərimizə münasibətdə yeni mərhələ başlandı. Məlumdur ki, ölkəmizdə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünün qorunması, ölkədə hüquqi-demokratik dövlət quruculuğu prosesində gənclərin rolunun müstəsnalığı nəzərə alınaraq, vahid gənclər siyasəti hazırlanıb, həyata keçirilib. Ümummilli Lider Heydər Əliyev gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsini vacib məsələlərdən biri kimi elan edib. Ulu Öndər Heydər Əliyev hər zaman "Gənclər bizim gələcəyimizdir" ifadəsini xüsusi vurğu ilə səsləndirərək, gənc nəsli ictimai-siyasi həyatda fəal iştirak etməyə həvəsləndirərək dövlət siyasətinin həyata keçirilməsində gənclərə xüsusi önəm vermişdi. Azərbaycanda fevral ayının 2-nin Gənclər Günü kimi qeyd edilməsi də Heydər Əliyevin adı ilə bağlıdır. Yüksək intellektual bacarıqlara malik olan və ölkənin ictimai-siyasi həyatında aktiv şəkildə fəaliyyət göstərən gənclər dövlət idarəçiliyi, iqtisadiyyat, mədəniyyət, idman, ordu və digər sahələrdə uğurla çalışaraq, ölkəmizi şərəflə və yüksək səviyyədə təmsil edirlər. Qürurla demək olar ki, bu gün Azərbaycan gəncliyi üzərinə götürdüyü şərəfli vəzifələrin öhdəsindən layiqincə gəlməyi bacarır. İnformasiya-kommunikasiya texnologiyalarının sürətlə inkişaf etdiyi bir dövrdə vətəndaşlarımız, xüsusilə, gənclərimiz daha çox maarifləndirilir, onlara daim ayıq-sayıq olmaları, elmli, savadlı gənclik olaraq yetişmələri aşılanır.

Ardı Səh. 5

# 2 Fevral Gənclər Günüdür!

## *Prezident İlham Əliyev: "Bizim gənclərimiz hərbi qələbələrimizi şərtləndiriblər"*



Əvvəli-Səh-4

Ümummilli Lider Heydər Əliyev gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsini vacib məsələlərdən biri kimi elan etdi. Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması, müstəqil Azərbaycan gənclərinin ilk Ümumrespublika Forumunun keçirilməsi, dövlət proqramlarının qəbulu, "Dövlət-gənclər siyasəti haqqında" Fərman və geniş Fəaliyyət Proqramının təsdiq edilməsi Ulu Öndər Heydər Əliyevin gənclərə böyük qayğısı idi. Azərbaycan gənclərinin cəmiyyətin inkişafında və öz problemlərinin həllində rolunu artırmaq, ölkənin gələcək inkişafında iştirakını və məsuliyyətini yüksəltmək, paytaxt və regionlarda yaşayan gənclərin fikir mübadiləsinə şərait yaratmaq, gənclər və dövlət qurumları, hökumət nümayəndələri ilə açıq ünsiyyəti asanlaşdırmaq məqsədilə Ümummilli Lider Heydər Əliyev tərəfindən hələ 1995-ci ildə Azərbaycan Gənclərinin Forumunun keçirilməsi təşəbbüsü irəli sürülmüşdür. 1997-ci ildə fevralın 2-nin Azərbaycan Gəncləri Günü elan edilməsi Ulu Öndər Heydər Əliyevin gənclərlə böyük qayğısının sübutu idi. Bütün bunlar gənclərin respublikanın ictimai-siyasi həyatında daha fəal iştirakına şərait yaratmaqla yanaşı, dövlət orqanlarının diqqətinin gəncliyin problemlərinin həllinə yönəldilməsi baxımından da olduqca əhəmiyyətli idi.

Ümummilli Lider Heydər Əliyev, həmçinin, elm və təhsil sahəsində köklü və əsaslı dəyişikliklərin həyata keçirilməsini təmin etdi. Çünki elm və təhsil bilik, savad, müasirlik gənclik üçün gələcəyə açılan geniş qapılar və müstəqilliyin zəmanəti deməkdir. Ulu Öndər bütün fəaliyyəti dövründə, xüsusilə, elm və təhsilin inkişafına xüsusi qayğı göstərib. Bu da, təsadüfi deyildi. Çünki yaxşı bilirdi ki, müasir dövrdə elm və texnika, təhsil olmadan heç bir irəliləyiş əldə etmək mümkün deyil, eyni zamanda, dövlətin savadlı kadr potensialı da, məhz müasir təhsil və keyfiyyətli tədrislə yaradılır. Buna görə də, Azərbaycanın tərəqqisinin yeganə yolunu, məhz xalqın yüksək təhsil almasında, maariflənməsində, fundamental və humanitar elmlərə mühüm əhəmiyyət verilməsində görürdü.

Bütün sahələrdə olduğu kimi, Azərbaycan elminin və təhsilin inkişafı istiqamətində Ulu Öndər Heydər Əliyev siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyev sosial-iqtisadi inkişafın yeni mərhələsində ölkənin intellektual gələcəyini təmin etməyin yolunu, məhz bu sahələrin inkişafında, onların müasir tələblər səviyyəsinə çatdırılmasında və həmin proseslərdə gənclərin böyük potensialından rasional istifadədə görür.

### GƏNCLİYİN POTENSİALINDAN ÖLKƏMİZİN DAYANIQLI İNKİŞAFI ÜÇÜN SƏMƏRƏLİ İSTİFADƏ EDİLDİ

Bu gün Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin gənclər siyasətini uğurla davam etdirir. Gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində görülən işlər, gənclər təşkilatlarının formalaşması və inkişafı üçün yaradılan şərait və imkan böyük diqqətin nəticəsidir. Dövlət başçısının gənclərin xaricdə təhsil almalarına dəstək verən "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil üzrə Dövlət Proqramı" bütün təbəqədən olan gənclərin xaricdə təhsilinə geniş imkanlar açmış oldu. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 2007-ci ilin ölkədə "Gənclər ili" elan olunması da Azərbaycan gənclərinin ölkənin ictimai-siyasi, iqtisadi və mədəni həyatında fəal iştirakı, sosial problemlərinin həlli və hüquqlarının müdafiəsinin təmin edilməsi, gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq dövlət proqramının səmərəli həyata keçirilməsi istiqamətində əhəmiyyətli oldu. Həyata keçirilən tədbirlər, islahatlar, dövlət proqramları əsasında deyə bilərik ki, Ulu Öndər Heydər Əliyevin gənclərə qayğısı indi yeni mərhələyə qədəm qoyub. Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli təbəqə kimi iştirakının təmin olunması, milli adət-ənənələrə, saf dəyərlərə bağlılığı üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir. Prezident İlham Əliyev gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, dövlət idarəçiliyi sistemində iştirakının gerçəkləşdirilməsi məqsədilə 2005-ci il avqustun 30-da "Azərbaycan Gəncliyi Dövlət Proqramı"nı (2005-2009-cu illər) təsdiq etdi ki, bu da gənclərə dövlət qayğısının artırılmasını təmin etmiş oldu. Həmin sərəncamda ölkəmizdə gənclərlə bağlı dövlət siyasətinin əsas istiqamətləri öz əksini tapmışdır. Bu istiqamətlər tamamilə xalqımızın milli mənafelərinin inkişafına yönəldilərək gəncləri ideya müəllifi olmağa səsləyirdi. Yəni, hər bir gənc fərdi qaydada özünüidarəçi kimi yetişdirməli, daim təşəbbüskarlıq göstərməlidir. Dövlətimizin başçısı tərəfindən gənclərin rifahına xidmət edən 2005-2009-cu illər ərzində "Azərbaycan gəncliyi Dövlət Proqramı", 2006-2010-cu illər ərzində "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı", "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı, "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" və s. kimi mühüm proqramlar təsdiq edilib. Bildiyimiz kimi, 2020-ci il Azərbaycan Respublikasında dövlət başçısının Sərəncamı ilə "Könüllülər İli" elan edildi. Bu Sərəncam gənclərin fərdi inkişafına təkan vermək, onlarda sosial məsuliyyət hissini artırmaq, gəncliyin potensialından xalqın rifahı və ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etmək məqsədi daşıyırdı.

Azərbaycan gənci fəal, vətənpərvər gənclikdir. 44 günlük Vətən müharibəsində bunun bir daha şahidi olduq. "Bu gün Azərbaycan gəncləri cəmiyyətimizin fəal hissəsidir. Biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik. Bizim gənclərimiz torpaq uğrunda, Vətən uğrunda vuruşurlar. Bizim şəhidlərimizin böyük əksəriyyəti gənclərimiz olubdur. Bizim gənclərimiz hərbi qələbələrimizi şərtləndiriblər", - deyə Azərbaycan Prezidenti bildirib. Son illər ölkənin ictimai-siyasi, elmi-mədəni həyatında gənclərin fəal iştirakı, tələbələrin vətənpərvərlik, azərbaycançılıq və dövlətçilik prinsipləri əsasında tarixi-mədəni irsimizə, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması, cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında fəal iştirakı, elmi, intellektual və yaradıcı potensiallarının ümummilli məsələlərin həllinə yönəldilməsi müasir dövrün tələbi olaraq qalır.

Azərbaycanda dövlət gənclər siyasəti bir daha onu göstərir ki, dövlətin həyata keçirdiyi düşünülmüş, ardıcıl ictimai-sosial islahatlardan əhalinin bütün təbəqələri kimi gənclərin də hərtərəfli yararlanmasına lazımi şərait yaradılıb.

***Nəzakət ƏLƏDDİNQIZI***



# Ermənistana növbəti dərsin verilməsinə ehtiyac var!

Ermənistan rəhbərliyinin regionda sülhün əldə olunması üçün sərgilədiyi cəhdləri bu gün də davam edir və bu cəhdlərin get-gedə artması isə vəziyyətin gərginləşməsinə yol açır. Bu dəfə Ermənistan parlamentinin vitse-spikeri Ruben Rubinyanın "Azadlıq Radiosu"nun erməni dili bölməsinə verdiyi müsahibəsindəki əsassız ifadələri erməni hökumətinin ritorikasının müharibə amili üzərində kökləndiyinə işarə edir. Xüsusilə, Azərbaycanın ortaya qoyduğu danılmaz faktları inkar etməyə səy göstərən Rubinyan həmin vasitə ilə yalnız əsassız nəticələrə gəldiyini deyil, həm də sözün əsl mənasında, ənənəvi erməni siyasətinin aşkar həyasızlığını nümayiş etdirir. Bəs nədir bunlar?

Beləliklə, Ermənistan parlamentinin vitse-spikeri iddia edir ki, guya bu ölkənin Qarabağda silahlı qüvvələri yoxdur, üstəlik, oraya heç bir mina, silah keçirilməyib və s. Rubinyan onu da iddia edib ki, sən demə, üçtərəfli Bəyanatda bu kimi qadağaların olmayacağı barədə bəndlər də yoxuymuş (?). Onun dediyinə görə, Ermənistan Qarabağa mina və silahlar keçirsəydi belə, Bəyanatda buna qarşı məhdudiyyətlər yoxdur (?!)



*Hakimiyyət rəsmilərinin Azərbaycana qarşı sərsəmləmələri davam edir...*



Əksinə, sırf siyasi həyasızlığı vasitəsini işə salan erməni parlamentinin rəsmisi Azərbycanı ittiham edərək sual edib ki, əgər onlar (ermənilər) "blokadadan" danışırlarsa, minaları və silahları qaz kəməri, ya da elektrik xətti ilə keçiriblər?

Bəli, bu və izafi erməni siyasətinə məxsus həyasızlığın son həddidir desək, yanılmarıq. Ona görə də erməni rəsmisinin iddialarına faktlarla cavab verməliyik!

**1.** Rusiya sülhməramlıları kontingentinin (RSK) müvəqqəti nəzarəti altında olan ərazilərdəki erməni silahlı qüvvələrinin təmsilçiləri bilavasitə Ermənistan vətəndaşlarıdırlar və Ermənistan silahlı qüvvələrinə məxsusdurlar. Yəni həmin silahlılar bu və ya digər hallarda Ermənistan ordusunu təmsil edirlər. Əgər belə olmasa idi onların müxtəlif pozuntuları Ermənistanın hərbi məhkəmələrində mühakimə olunmazdı.

Və ən əsası, Rusiyanın Qarabağa atdığı "desantı" - erməni milyarderi Ruben Vardanyan "Meduza"ya müsahibəsində etiraf etdi ki, bəli, Qarabağda erməni hərbi birləşmələri var və onlar Ermənistan silahlı qüvvələrinə məxsus adamlardırlar.

**2.** Bəyanatda "Azərbaycan Laçın dəhlizi ilə hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinin təhlükəsizliyinə təminat verir" ifadəsində kifayət qədər məntiqlə göstərilir ki, Ermənistan Azərbaycan ərazisinə heç bir silah, mina və əsgər gətirməməlidir. Yoxsa Ruben Rubinyan düşünür ki, Azərbaycan erməni hərbçilərinin, silah və minaların da keçməsinə icazə vermək öhdəliyini öz üzərinə götürüb? Onda Rubinyan xatırlamalıdır ki, həmin ifadədə daha bir nüans var: orada yüklərin maneəsiz (!) daxil olması sözü yazılmayıb. Bu isə o deməkdir ki, Bakı istənilən vaxt Laçın dəhlizinin girişində nəzarət-buraxılış məntəqəsi və gömrük məntəqəsi yarada, Azərbaycanın suveren ərazisinə daxil olacaq bütün yükləri və bütün mülki şəxsləri yoxlaya bilər və etməlidir də! Məhz bu yoxlamalardan sonra Azərbaycan ərazilərin sahibi kimi keçidin təhlükəsizliyini təmin etməyi öhdəsinə götürür. Rubinyan bu faktları həm öz qulağından, həm də rəhbərlərinin qulaqlarından asmağı da unutmamalıdır...

**3.** Bütün bu kimi iddialar - "kəsilən" elektrik naqilləri, qazın "bağlanması" ilə əlaqəli söhbətlər, sadəcə olaraq, erməni tərəfinin fərziyələridir və erməni tərəfi həmin fərziyələrini heç nə ilə isbatlaya bilmir. Yox, əgər erməni rəhbərliyinin əlində faktlar varsa, buyurub onları təqdim etsinlər.

Rubinyan guya siyasi cəhətdən çox "ağıllı" və "dərkedici şəxsiyyət" olduğunu sübut etmək üçün davam edib: "9 noyabr 2020-ci il tarixli Üçtərəfli Bəyanatda ağ və qara rəngdə deyilir:

- Laçın dəhlizi RMK-nın nəzarətində qalır. Üstəlik, əgər Dağlıq Qarabağın özündə RSK, sözün klassik mənasında, sülhməramlılıqla məşğuldursa, yəni iki münaqişə tərəfi - Dağlıq Qarabağ və Azərbaycan arasında dayanırsa, o zaman Laçın dəhlizindədir ki, bu da sadəcə yol deyil, eni 5 km olan bu əraziyə birbaşa nəzarət həyata keçirilir. Üçtərəfli Bəyanata görə, bu ərazidə nə Ermənistanın, nə də Dağlıq Qarabağın səlahiyyətləri və nəzarət funksiyaları yoxdur.

"Azərbaycanın da Laçın dəhlizində heç bir səlahiyyəti yoxdur, lakin onun öhdəliyi var: Laçın dəhlizi ilə hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin təhlükəsizliyinə zəmanət vermək. Və təbii ki, Azərbaycan bu bəndi pozub". Axmaq iddiaları ilə özünü və erməni cəmiyyətini aldatmağa cəhd edən Rubinyan bunları bilməlidir:

**1.** Bəyanatın 1-ci bəndində yazılıb ki, "Azərbaycan Respublikası və Ermənistan öz mövqelərində dayanırlar".

Rubinyan "Dağlıq Qarabağı" münaqişə tərəfi kimi harada gördü? Münaqişə tərəfləri Azərbaycan və Ermənistandır! Aparılan danışıqların hər biri də bilavasitə bu ölkələr arasında mövcud olub. Ona görə də Rubinyan maraqsız və uğursuz fantaziyalarını özündə saxlaya bilər.

**2.** Ermənistan parlamentinin vitse-sikeri bir faktı da bilməlidir ki, Laçın yolu Azərbaycanın suveren ərazisidir və Azərbaycan bu yolda ölkənin qanunvericiliyi ilə nəzərdə tutulmuş bütün səlahiyyətlərə malikdir. Azərbaycan hansı addımı atırsa belə, Azərbaycan qanunvericili əsasında reallaşdırılır. Sabah Bakı bu yolda gömrük-keçid məntəqələrini quracaqsa, onu mütləq edəcək və heç bir qüvvə Azərbaycana sual edə bilməyəcək ki, nəyə görə bu yolda məntəqə qurdun və s. Ona görə də Rubinyan dərk etməlidir ki, əslində, yerdə qalan pozuntuların da aradan qaldırılması yönündə Azərbaycan öz qərarlarını verəcək.

Rubinyan, Paşinyan, Simonyan və daha kimlər və kimlər reallığa qalanda şükür etməlidirlər ki, 2020-ci ilin noyabrından bu yana öz qazdıqları qəbirlərinə daxil olmayıblar. Fəqət, gec-tez hər şey birdən onlar üçün məhv ola bilər, xüsusilə, belə sərsəm iddialarla bəyanatlar versələr...

***Rövşən RƏSULOV***

ANALİTİK




## Tehranın riyakar siyasəti və bumeranq effekti

***Azərbaycanın İrandakı səfirliyinə silahlı hücum bir çox məsələlərin üzərinə yenidən işıq saldı. Xüsusilə də, Tehran rejiminin anti-Azərbaycan siyasəti bir daha ifşa olundu.***

Ekspertlərin qənaəti budur ki, səfirliyə edilmiş hücum sadəcə Vyana və Cenevrə konvensiyalarının pozulması, terror aktı deyil, həm də son dövrlərdə, xüsusilə də İkinci Qarabağ müharibəsində qazandığımız Qələbədən sonra İranın ölkəmizə qarşı isterika vəziyyətində həyata keçirdiyi riyakar siyasətin növbəti elementidir.

Halbuki tarixi Zəfər qazanaraq ərazi bütövlüyünü bərpa edən Azərbaycan İranla münasibətlərdə tamamilə yeni bir səhifə açmaq niyyətində idi. Xüsusilə də, qələbədən dərhal sonra Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Xudafərin körpüsünü "dostluq körpüsü" adlandırmasını rəsmi Tehran ona uzadılan dost əli kimi qiymətləndirməliydi. Amma bu ölkə Azərbaycanın sərhəd təhlükəsizliyini təmin etməsindən narahatlıq duyaraq bunu İranın "qırmızı xətti" kimi dəyərləndirməklə, sərhədlərimizin yaxınlığında hərbi təlimlər keçirməklə, necə deyərlər, körpüləri yandırdı. Bundan sonra bir-birinin ardınca yeni istehsalına başladıqları PUA-larla məğlub Ermənistan ordusunu silahlandırmaları, Qafanda tələm-tələsik konsulluq açmaları, Tehranla İrəvan arasında qardaşlaşma müqaviləsinin imzalanması və İran mediasında Azərbaycan əleyhinə aparılan qarayaxma kampaniyasının şiddətlənməsi reallıqların nədən ibarət olduğunu göstərdi. Nəhayət, bu dövlətin Allahın evində - məsciddə donuz saxlayan, müsəlmanlara qarşı misli görünməmiş terror aktları, soyqırımı törətmiş ermənilərə qucaq açması İranın adında daşıdığı İslamla heç bir əlaqəsi olmadığını, dindən siyasi maraqları təmin etmək üçün riyakarcasına istifadə etdiyini göstərir. Bəli, görünən dağa bələdçi lazım deyil: fars rejimi üçün siyasi mənfəət dini dəyərlərdən üstündür.

Heç şübhəsiz, isterika və geosiyasi təcrid vəziyyətində olan, sanksiya əsirinə çevrilmiş İranın dağıdıcı mövqeyi və qeyri-adekvat siyasəti regionda reallıqları dəyişə, proseslərə yön verə bilməz. Tehran bu reallığı nə qədər tez dərk etsə, bir o qədər özü üçün faydalı olar. Əks halda, bumeranq effekti, yaxud yeni geosiyasi zəlzələlər İranın ciddi dağıntılar altında qalmasına səbəb ola bilər. Hər halda, düşünmək vaxtıdır. Amma təkcə düşünmək yetməz..!

## TƏHLİL

***Bəli, iki il əvvəl, sentyabrın 27-də işğalçı Ermənistanın növbəti təxribatına cavab olaraq əks-hücum əməliyyatına başlayan Azərbaycan Ordusu 44 günlük Zəfər yürüşü ilə ölkəmizin ərazi bütövlüyünü təmin etdi. Müharibədən sonrakı dövrün yaratdığı reallıqlar ölkəmizin qarşısında yeni çağırışlar müəyyən etdi. Bu gün Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə azad edilmiş kəndlərimiz, şəhərlərimiz yenidən, qurulur, dirçəlir.***



# "BÖYÜK QAYIDIŞ": 30 İLLİK HƏSRƏTƏ SON!

Bütün işlər ardıcıl və sistemli şəkildə həyata keçirilir. Məhz Prezident İlham Əliyevin 16 noyabr 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" mütərəqqi beynəlxalq təcrübə əsasında, işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi potensialı və dünya iqtisadiyyatının müasir çağırışları nəzərə alınmaqla hazırlanmışdır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına daxil olan əraziləri əhatə edən Dövlət Proqramı strateji hədəf və məqsədlərdən ibarətdir. Həmçinin, Dövlət Proqramı çərçivəsində Böyük Qayıdışla bağlı mühüm prioritet vəzifələr müəyyən olunmuşdur. İşğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması istiqamətində əsas prioritetlərdən biri ərazilərin minalardan və digər hərbi sursatdan təmizlənməsidir. Təbii ki, təhlükəsizlik tədbirləri görülmədən bərpa-quruculuq işlərini həyata keçirmək mümkün deyil. Təhlükəsizlik məsələsinə, eyni zamanda, dövlət sərhədinin etibarlı müdafiəsinin təmin olunması daxildir.

## GENİŞMİQYASLI LAYİHƏLƏR QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURUN SÜRƏTLƏ DİRÇƏLMƏSİNƏ, ƏHALİNİN DAYANIQLI MƏSKUNLAŞMASINA XİDMƏT EDİR

Vətən müharibəsində əldə olunan şanlı qələbədən sonra növbəti mərhələdə işğaldan azad olunan ərazilərdə dağıdılan infrastrukturun, şəhər və kəndlərin bərpası, köçkünlərin doğma yerlərinə qaytarılması üçün dövlət tərəfindən qısa müddətdə bütün imkanlardan istifadə edilir. Dövlət tərəfindən Böyük Qayıdış planına uyğun olaraq məcburi köçkünlərin doğma yurd-yuvalarına ən qısa zamanda qayıtması üçün bütün imkanlar səfərbər olunub. Həmçinin, Dövlət Proqramında Qarabağ və Şərqi Zəngəzurda qayıdışın birinci mərhələsində vətəndaşlarımızın öz ata-baba yurdlarına qayıtması üçün sistemli və ünvanlı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Və vətəndaşlarımızın öz ata-baba yurdlarına qayıtması üçün, ilk növbədə, Qarabağ və Şərqi Zəngəzurda həyata keçiriləcək bərpa-quruculuq işləri ən müasir standartlara əsaslanacaq və bölgənin coğrafi-iqtisadi, tranzit, bir sözlə, bütün imkanları kompleks qaydada nəzərə alınacaq. Proqramın əsas hədəfləri infrastrukturun yenidən qurulması, iqtisadiyyatın formalaşması və inteqrasiyası, sosial inkişaf, eyni zamanda, ətraf mühitdə tarazlığın qorunması, yeni yaşıl iqtisadiyyatın formalaşdırılmasından ibarətdir.

Bir sözlə, həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə inkişafına, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyin təmin olunmasına xidmət edir, habelə həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün sağlam bünövrə yaradır. Məlum olduğu kimi, Qarabağ və Şərqi Zəngəzurun geniş nəqliyyat-tranzit potensialı vardır. Bu sahədə qurulacaq müasir infrastruktur isə əlavə imkanlar yaradacaq, ərazilərin inkişafı və reinteqrasiyası üçün əsas rolunu oynayacaqdır. Odur ki, işğaldan azad edilmiş ərazilərin ölkə və region iqtisadiyyatına reinteqrasiyası çərçivəsində bölgənin tranzit potensialı xüsusilə nəzərə alınacaqdır. Bir tranzit imkanları deyil, bölgənin bütün imkanları nəzərə alınacaq ki, işğaldan azad edilmiş ərazilərdə iqtisadi canlanma təmin edilsin. Burada əsas hədəf isə bu ərazilərin iqtisadi cəhətdən özü-özünü təmin edən regiona çevrilməsidir.

Prezident İlham Əliyev bu barədə çıxışlarının birində vurğulayıb ki, Böyük Qayıdış proqramı uğurla icra edilir: "Bir neçə şəhərdə artıq inşaat işləri geniş vüsət almışdır. İlk növbədə Şuşa, eyni zamanda, Ağdam, Füzuli, Zəngilan, Laçın şəhərlərində geniş quruculuq işləri gedir, xəstəxanalar, məktəblər, yaşayış binaları inşa edilir". Bununla yanaşı, 10-dan çox kəndin Baş planının təsdiqləndiyini və bir neçə kəndin təməlini şəxsən qoyduğunu qeyd edən Prezident deyib: "Bütövlükdə deməliyəm ki, azad edilmiş bütün şəhərlərimizin və qəsəbələrimizin Baş planları hazırlandı, təsdiqləndi. Bütün işlər Baş planlar əsasında gedəcək. Eyni zamanda, Böyük Qayıdış Proqramında bizim bütün planlarımız öz əksini tapıb və əminəm ki, yüz minlərlə keçmiş köçkün yaxın gələcəkdə öz doğma torpağına qayıdacaq".

## "BÖYÜK QAYIDIŞ" XALQIMIZIN QARŞISINDA DURAN MÜASİR TARİXİMİZİN AKTUAL ÇAĞIRIŞIDIR

44 günlük Vətən müharibəmiz Azərbaycanın 30 ilə qədər işğalda qalan torpaqlarının qayıtması ilə nəticələndi. Bununla da, Azərbaycan həm də beynəlxalq hüququ və ali ədaləti bərpa etdi. Artıq Böyük Qayıdış prosesinə start verilib və Azərbaycan tarixi Qələbəni diplomatiya meydanında, quruculuq müstəvisində möhkəmləndirir. Bu, istər ölkədə, istərsə də regional miqyasda keyfiyyətcə yeni mərhələnin başlanğıcı və yeni perspektivlər deməkdir. Prezident İlham Əliyev ölkənin birinci vitse prezidenti Mehriban Əliyeva ilə birlikdə işğaldan azad olunmuş ərazilərə dəfələrlə səfərlər edib. Burada çoxlu sayda infrastruktur layihələrinin təməlqoyma mərasimi, işlərin gedişi ilə tanış olublar. Bu gün görülən işlərin miqyası onu deməyə əsas verir ki, məcburi köçkünlərin yurd həsrətinə ən qısa müddətdə son qoyulacaq. Bu insanların təhlükəsiz və ən əsası, ləyaqətli şəkildə öz ata-baba yurdlarına geri qayıtması təmin ediləcək. Bunu azad edilmiş ərazilərə səfərlər edən diplomatlar, xarici jurnalistlər də təsdiq edir. Ən əsası isə Azərbaycan insanı özü buna tam əmindir. Çünki Azərbaycanın ərazi bütövlüyünün təmin olunması xalqımızın çoxəsrlik tarixində mühüm yer tutur. Bir sözlə, Qarabağın yenidən məskunlaşdırılması üçün hər şey hazırdır və cəmi bir neçə ilə orada yeni müasir şəhərlər, kəndlər yaranacaq. Yeni mədəniyyət sarayları, idman arenaları, sanatoriyalar, təhsil və səhiyyə müəssisələrinin yaradılması bu regionu tezliklə inkişaf etmiş müasir bir diyara çevirləcək. Bu ərazilərdə böyük təbii potensial olan böyük su ehtiyatı, meşə fondu, məhsuldar torpaqlar, nadir flora və fauna fondu var. Onların da bərpası tezliklə həll olunacaq. Bu qayıdış "Böyük Qayıdış" olmaqla, təkcə azərbaycanlıların Qarabağa deyil, vaxtilə deportasiya edildikləri bütün tarixi torpaqlara qayıdışını əhatə edəcək. Bu uğurlar Prezidentimiz cənab İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasətin mükəmməlliyinin və aparılan islahatların cəmiyyətin bütün təbəqələrinin mənafeyini əks etdirdiyini, Azərbaycanın dünya miqyasında nüfuzunun artmasını, həm də ölkəmizin Cənubi Qafqaz regionunda lider dövlətə çevrildiyini bir daha göstərir. Sözügedən strategiya yeni infrastrukturun yaradılması ilə yanaşı, işğaldan azad olunmuş ərazilərin ümumən regionun yeni inkişaf modelinə çevirməkdən ibarətdir. Azərbaycan Qarabağ və Şərqi Zəngəzuru cənnətə çevirməklə, Böyük Qayıdışı ən yüksək səviyyədə təmin etməklə bir daha öz qüdrətini bütün dünyaya nümayiş etdirəcək.

Bəli, iğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış daha da tezləşəcək. Bu gün həmin arzu, istək reallaşır. Azərbaycan Prezidenti İlham Əliyevin çox böyük uzaqgörənliyi, müzəffər ordumuzun gücü və qüdrəti, xalqımızın birliyi nəticəsində 30 ildən sonra həmin torpaqlar işğaldan azad olundu və bu gün öz sakinlərini gözləyir, özü də 30 il həsrətində olduğumuz o torpaqlara - cənnətməkana çevrilən torpaqlara qayıdırıq. Bəli, Qarabağ və Şərqi Zəngəzuru quruculuğun əsas meydanına çevirən Prezident İlham Əliyevin dediyi kimi, biz işğaldan azad olan torpaqlari cənnət-məkana çevirəcəyik!

**RƏFİQƏ KAMALQIZI**

# Heydər Əliyev-100



# XİLASKAR

## Ulu öndər Heydər Əliyevə ithaf edirəm

(Sənədli hekayə)

***Məmləkətin vəziyyəti çox qarışmışdı. Kommunistlər hakimiyyəti idarə eləyə bilmədiklərindən, Sovetlər ölkəsinin qırmızı terror olduğu ortaya çıxdığından, özlərini xalqın tərəfində olan kimi göstərən bəylər hakimiyyətə can atır və xalqa yağlı vədlər verirdilər. Amma bu bəylərin arasına xarici kəşfiyyat tərəfindən təhlükəsizlik komitəsinin bəzi adamları və zatıqırıqlar yerləşdirildiyindən və xarici ölkələrdən lazım olan qədər pullar alındığından, çox yaxşı maskalanmış və xalqın ürəyinə yatan, beyninə təsir edən sözlər, vədlər verməklə, küçələrdə, meydanlarda gur səslə qışqırırdılar.***

Bu yolla onlar xalqı aldadaraq, çaş-baş qoymuşdular... Hətta bu adamlar sadə, kasıb xalqı inandırırdılar ki, Sovetlərdən qalma zavodları, fabrikləri söksünlər, kolxozları, sovxozları dağıtsınlar. Onlar hakimiyyətə gələndən sonra bundan yaxşılarını tikəcək və xalqı süd gölündə üzdürəcəklər...

Doğrudan da artıq çaş-baş qalan, çörək almağa pul tapmayan, dəhşətli xaosun içərisində yaşayan xalqın böyük əksəriyyəti onlara inanır və bəylərin hakimiyyətə gəlməsi üçün ayağa qalxır, iqtidarda olanları devirmək istəyirdilər. Onlar bu ümidlə, istəklə özlərini "canıyanan" kimi göstərən həmin qaragüruhçu adamlara qoşulurdular ki, daha bundan sonra cavanlarımız pul qazanmaq üçün Rusiyaya və başqa xarici ölkələrə getməyəcəklər. Subay oğlanlarımız Mariyaların, Sonyaların, Viktoriyaların eşqilə xaricə köçməyəcək və qızlarımız da evdə qalıb qarımayacaqlar...

Belə bir vaxtda, xaosun, hərcmərcliyin pik nöqtəsinə yaxınlaşdığı, hakimiyyət üstündə davanın qızışdığı zamanda doğma torpaqlarımızı erməni gavurlarından qorumağa nə əsgər, nə də silah-sursat tapılmadığından, ermənilər rusların əlilə dədə-baba yurdlarımızı işğal eləyir, həmvətənlərimiz öz doğma evlərindən, obalarından didərgin, qaçqın düşürdülər...

Meydanlarda özlərini xalqın xilaskarı adlandıran bəzi bəylər qonşularımız olan rusların, farsların ünvanına təhqiramiz fikirlər işlətməklə, hətta tezliklə Dərbəndi, Borçalını və Cənubi Azərbaycanı da Şimali Azərbaycana birləşdirəcəklərini xalqa vəd edirdilər. Hətta buna görə onların çoxlu silah-sursatı olduğunu, bəzi xarici ölkələrin də onlara kömək edəcəklərini ağ yalan kimi xalqa sırıyırdılar. Bu məkrli fikirləri eşidən ruslar və farslar ermənilərə həm silah, həm texnika və həm də canlı qüvvə ilə köməklik etməklə, kəndlərimizi, rayonlarımızı bir-bir işğal eləyir, həmvətənlərimizi öz doğma yurdlarından qovur, öldürürdülər...

Belə bir vaxtda Xocalı faciəsinin, Ağdaban fəryadının harayı artıq xalqı çaş-baş qoymuş və özünə inamını tam itirmişdi. Xalq demək olar ki, arxasız, başsız qalmışdı...

... Bundan istifadə eləyən bəylər hakimiyyəti ələ keçirdilər. Amma az bir vaxtda bəylərin dövlətçilik təcrübəsinin, yüksək savadının, təşkilatçılığının olmaması və onların içərisində böyük bir qrupun yalnız özünü düşünməsi, pul qazanmaq hərisliyi aydın oldu. Baxmayaraq onların içərisində xalqı düşünən, xalq üçün çalışanlar da vardı, amma əfsus ki, çox az idi...

Yusif-Sərrac kimi zorla hakimiyyətə gətirilərək prezident kürsüsündə əyləşdirilən Böyük bəy özü nə qədər təmiz olsa da, xalqı fikirləşsə də, amma güclü siyasətinin, təşkilatçılığının olmaması və ətrafında olanların onu eşitməməsi, "mənəm-mənəmliyi", hətta onun kabinetini "siqaret çəkmək otağına" çevirmələrinin belə qarşısını ala bilmirdi. Böyük bəyin otağındakı tüstüdən o, danışanların kim olduğunu belə ayırd eləməyə çətinlik çəkirdi. Artıq bəylər bir-birini mətbuatda, televiziyada təhqir edir, bir-birinə əl qaldırır, küçə söyüşləri işlədirdilər. Torpaqlar isə bir-birinin ardınca boşaldılır, zavodlar, fabriklər bağlanır, onların lazımlı hissələri sökülərək, Türkiyəyə, İrana daşınırdı. Kolxozların, sovxozların mal-qaraları İrana aparılaraq, qəpik-quruşa satılırdı. Saqqıza dəyişdirilirdi...

Xalq başını artıq itirmişdi. Çünki bəylərin bu özbaşınalığını görən, yaxşı mütəxəssis olsa da "partokrat" damğası ilə işdən çıxarılan insanlar, artıq bəylərə qarşı mübarizəyə qalxmışdılar. Beləliklə, məmləkətdə vətəndaş qırğını başlayırdı...

Hətta "yuxarı eşalonda" tərbiyəsizlik, mənəmmənəmlik, özündən müştəbehlik, prezidenti saymamaq, ona tabe olmamaq, onun sözlərini, fikirlərini qulaq ardına almaq, ona Yusif-Sərrac kimi baxmaq baş alıb gedirdi. Özünü "kapitan Kataniya" adlandıran Daxili işlər naziri və onun əsabələri məmləkətin rayonlarını gəzir, pullu adamların varidatını, xarici maşınlarını əlindən alır və böyük cəzalar tətbiq edirdilər. Onun və əsabələrinin yekəxanalığına, qəddarlığına dözməyən, əlində olan beş-üç manatı alınan adamların bəzilərinin ürəyi partlayıb ölürdü...

Həmin adamlardan bəzilərini yaxşı tanıdığıma və onların başına gətirilən dəhşətli hadisələri danışan vaxt necə hönkür-hönkür ağladıqlarının da şahidi olduğumdan ürəyimdən qara qanlar keçir və həmin "kapitan Kataniya"ya nifrətimi gizlədə bilmirdim... Bu adamın və əsabələrinin həyasızlığı, tərbiyəsizliyi o yerə gəlib çatmışdı ki, televizorda canlı yayım getdiyi vaxt, onun ünvanına Baş nazirin dediyi iradlara görə təcili studiyaya gəlmiş və veriliş gedən vaxt canlı yayıma girərək, onu söyüb təhqir eləmiş, onların əlbəyaxa döyüşü xalqa canlı yayımlanmışdı...

Xalq hakimiyyətdə oturan yüksək rütbəli məmur bəylərin bu özbaşınalığını nifrətlə qarşılasa da, qorxusundan heç nə deyə bilməmişdi. İnsanlar sadəcə onlara inanıb hakimiyyətə gətirdiklərinə görə özlərini yamanlayır, qınayırdılar. Hətta prezident "Yusif-Sərrac" onlardan qorxduğuna, çəkindiyinə görə heç birini işdən çıxarmamışdı. Xalq bu gördüklərinə, prezidentin sərt hərəkət etməməsinə, qəti addımlar atmamasına çaşıb qalmışdı. Xalq bir şeyi fikirləşirdi ki, bu bəyləri hakimiyyətə gətirməklə çox böyük səhv eləyib. Bəlkə elə, "partokratların" ardınca getsəydilər, başlarına bu hadisələr, müsibətlər də gəlməzdi, deyə düşünürdü...

Bütün bunları - ölkəni ağuşuna alan xaosu, hərc-mərcliyi, məmləkətin talan olunmasını, zavodların, fabriklərin sökülüb dağılmasını, Malıbəylinin, Xocalının, Ağdabanın və ən dəhşətlisi Kəlbəcər kimi böyük sərvəti olan yerin işğal olunmasını çox ağrılı qarşılayan və Naxçıvandan izləyən Heydər Əliyev xalqa heç bir köməklik göstərə bilmədiyindən böyük sarsıntılar keçirir, bir vaxtlar on beş respublikanın arasında ən varlı respublikalardan biri elədiyi Odlar yurdunun necə bataqlığa yuvarlandığını ürək ağrısı ilə seyr edirdi...





**Ulu öndər "Mən həyatımın bundan sonrakı illərini xalqıma, onun xoş günlərinə bağışlamalıyam. Xalqımın əvvəlki əzəmətini, özünə inamını geri qaytarmalıyam.**

Bir dəfə geniş infarkt keçirən, böyük iradəsi, səbri, dözümü ilə ölümə qalib gələn Ulu Öndər yenidən infarkt keçirəcəyindən qorxurdu... Əgər belə olsa, xalqa daha heç bir köməklik eləyə bilməyəcəkdi və ölkə parçalanacaqdı. Azərbaycan adlı ölkənin adı az bir vaxtda tarixdən silinəcəkdi...

Amma onun bir təskinliyi vardı ki, Naxçıvanda camaat ona Böyük Tanrı kimi inanır, hörmət eləyirdi. Bu torpağın blokadada olmasına baxmayaraq insanlar aclığa, susuzluğa, səfalətə, iqtisadi böhrana dözərək onun ətrafında daha sıx birləşərək, torpağı yağı düşməndən bacardıqları kimi qoruyurdular. Onun çox böyük təkidi, qorxmazlığı ilə qaldırılan üç rəngli milli bayrağı göz bəbəyi kimi qoruyurdular. Hətta artıq bir əsrdən çox farsların və rusların məkrli oyunu ilə iki yerə parçalanan Odlar Yurdunun tikanlı məftillərini, sərhəd dirəklərini rus-fars əsgərlərindən qorxmadan qırıb atır, yandırırdılar. O taylı-bu taylı bacı və qardaşlarımız uzun illərin həsrətliləri kimi bir-birinə sarılırdılar... Bu qürurverici səhnələri gördükcə adamların ürəyi dağa dönürdü... Gözlərinə inanmırdılar ki, bu möcüzə məhz onların yaşadığı zamanda, gözlərinin qarşısında baş verir...

Bundan həvəsə gələn, özündə güc-qüvvə toplayan bütün sərhədyanı bölgələrdəki həmvətənlərimiz də sərhəd dirəklərini, məftilləri söküb atırdılar. Çünki hər biri arxasında Ulu Öndəri görür, onun qorxmazlığından, qətiyyətindən ruhlanırdı... Bütün bu tarixi hadisələrdən dahi rəhbər ustalıqla nəticə çıxarmağa çalışırdı...

Farslar və ruslar Azərbaycanın yenidən birləşəcəyindən qorxuya düşərək Şimali Azərbaycanı bütövlükdə parçalamaq haqqında planlar cızırdılar. Məmləkət bu dəfə dörd yerə bölünməli idi. Cənub və Naxçıvan farslara verilməli, Bakı və Muğan bölgəsi rusların əlinə keçməli, Qarabağ-Gəncə ermənilərə peşkəş olunmalı, Qazax, Zaqatala bölgəsi də gürcülərə verilməliydi. Dahi şəxsiyyət Heydər Əliyev bütün bu oyunları aydın dərk edirdi, amma xalqa heç bir köməklik göstərə bilmirdi... Vəziyyət isə gündən-günə gərginləşir, xalq vətəndaş qırğını ərəfəsinə addım-addım yaxınlaşırdı. Xalqın önünə çıxıb, bu qırğının qarşısını ala biləcək rəhbər, lider isə paytaxtda yox idi.

... Artıq Bakıda, Sumqayıtda, Gəncədə və digər bölgələrdə Odlar Yurdunun tezliklə parçalanacağını duyan ziyalılar Naxçıvana gedib Ulu Öndərdən kömək, imdad istədilər. İnsanlar isə küçələrə çıxıb, əllərində olan "Xalq Heydər-Heydər xalq" plakatları ilə polisin dəyənəklərinə rast gəlsələr də geri çəkilmədilər. Dahi rəhbər Bakıya dəvət edildi, xalqa arxa-dayaq olmaq ondan xahiş edilirdi.



Ziyalılara diqqətlə qulaq asan Heydər Əliyev bu işin reallaşmasının çətin olduğunu bilirdi. O, yaxşı bilirdi ki, ruslar, farslar, ermənilər buna qarşı idilər. Həmçinin onların xəfiyyəsinə işləyən, düşmən dəyirmanına "su tökən" yüksək rütbəli məmurlarımız çoxluq təşkil edirdi. Qonşu xarici ölkələr də Azərbaycan adlı "yağlı tikəni", böyük sərvəti, torpağının altı və üstü qızıl olan bir diyarı heç vəchlə əldən çıxarmaq istəmirdilər...

... Bütün bunları fikirləşən, yuxusu ərşə çəkilən böyük iradəli insan xalqının, millətinin dərd-ələm içərisində olduğunu bilən dahi rəhbər beynindən yalnız bu sualları keçirirdi: "Canımdan artıq sevdiyim xalqıma, məmləkətimə necə köməklik göstərim? Yetmiş ildən sonra yenidən müstəqillik qazanan ölkənin parçalanmasının qarşısını necə alım? Müqəddəs müstəqillik yolunda qan tökən həmvətənlərimizin ruhunu necə şad eləyim?"...

... Suallar çox, bütün cavablar isə qaranlıq bir dalana dirənirdi. İti ağılı, böyük səbri, dərin siyasəti ilə Moskvadakı düşmənlərinin əlindən sağ çıxaraq, doğma Vətənə dönən dahi rəhbər xalqı düşdüyü çamurluqdan çıxarmaqda elə bil ki, aciz idi... Çünki iqtidarda və müxalifətdə olanları bir araya gətirməli, ortaq məxrəc tapmalıydı ki, xalq qırğına, vətəndaş müharibəsinə getməsin. Bu, artıq onun üçün Hamletin "Ölüm, ya olum" monoloqundakı kimi çətin iş idi. O, bu suala dəqiq, qansız-qadasız cavab axtarırdı... Vaxt isə gözləmirdi. Torpaqlar işğal olunur, qaçqınların, köçkünlərin sayı durmadan artırdı. Axarlı-baxarlı, cənnətməkan yurdlarını qoyub gələnlər bu dərdlərə dözə bilmir və ürəkləri qubar eləyir, haqq dünyalarına qovuşurdular... Ölkəmizə qarşı daha çox müsibətlərin baş verməsinin qarşısı hökmən alınmalı idi...

... Kəlbəcərin işğalından sonra Böyük bəy başını tam itirmiş, onu bu oyuna salanlara lənətlər yağdırırdı. Onun xalqa cavab verməyə, onlara ümidli söz deməyə üzü yox idi. Prezident olmağa razılıq verdiyinə görə də o, çox peşman idi. Çünki Milli Məclisdə keçirilən iclasların necə böyük təhqirlə keçməsini görsə də heç nə deyə bilmir, yalnız siqareti-siqaretə calayardı. Arada demək istədiyi iradları isə heç kim eşitmirdi. Heç kim onu saya salmırdı. Heç kim ona qulaq asmırdı. O, tam çaşqınlıq içərisində idi... Xalqın ona olan inamı artıq itmişdi. Çünki öz işini bacarmadığından ölkəni bir neçə adam idarə eləyirdi...

Səmimiyyətlə desək, Böyük bəy Vətənini canından çox istəyirdi. O, hakimiyyətə gəlişilə tayfabazlığın, yerlibazlığın, qohumbazlığın, rüşvətin qarşısını var gücü ilə almağa çalışırdı. Ən böyük səhvi isə uzun illər rəhbərlik təcrübəsi olan, dövlətçilik sahəsində uğurlu işlər görən, Odlar Yurdunu heç də ondan az sevməyən, yüksək savada malik adamlara "partokrat" damğası vumaqla işdən çıxarması, səriştəsiz, meydanda ucadan qışqıran, kopud, yalnız özünü düşünən, mütəxəssis olmayanları onların yerinə qoyması idi. Bu təsadüfi adamlar isə ölkəni talan eləyirdilər... Məmləkət gündən-günə çökürdü. Bir tərəfdən də Böyük bəyin qonşularımızla, farslar və ruslarla çox kobud siyasət aparması, ölkədə iqtisadi vəziyyətin dözülməz olması, maliyyə gəliri olmaması ucbatından güclü qoşun yaratmağın çətinliyi və digər səbəblərdən hakimiyyət artıq laxlayırdı. Farslardan Cənubi Azərbaycanı, ruslardan Dərbəndi, gürcülərdən Borçalını, ermənilərdən İrəvanı, Göyçə mahalını, Zəngəzuru tələb eləməsi bu adamın siyasətdə naşı, "piyada" olduğunu göstərirdi... O, tam başa düşürdü ki, tezliklə vətəndaş qırğını başlayacaq və bunun qarşısını almaq mümkün olmayacaq. Çünki orduda bəzi komandirlər ona qarşı idi və qoşunları sərhəddən çıxararaq, Bakıya hücuma hazırlaşır, onu devirmək, hətta öldürmək istəyirdilər... Ətrafında olan bir qrup satqın isə "yanan odun üstünə benzin tökən" vəziyyəti daha da qızışdırırdılar...

... Böyük bəy də "Ölüm, ya olum" sualı qarşısında qalmışdı... İstəsə də, istəməsə də "Xalq-Heydər, Heydər- xalq" deyən xalqın səsini eşidib, hökmən Heydər Əliyevi köməyə çağırmalıydı. Başqa çıxış yolu yox idi...

... Nəhayət, özündə təpər, güc, qətiyyət taparaq dahi insana telefonla zəng elədi. Onu Azərbaycanın düşdüyü bu bəladan xilas etmək üçün köməyə çağırdı. Onun fiziki aradan götürülməməsinə, qorunmasına tam təminat verdi... Hər ikisinin bir saatlıq telefon söhbəti ümid işartısı yaratdı. Böyük şəxsiyyət bu işin necə çətin olduğunu bilsə də, Bakıya gəlməyə, ona köməklik eləməyə, qardaş qırğınının qarşısını almağa razılaşdı... Söz verdi.

... Dahi rəhbər Naxçıvanda olduğu üç illik əziyyətləri arxada qoyaraq Bakıya gəlməklə Naxçıvan camaatını blokadadan, aclıqdan, iqtisadi çətinlikdən çıxaracağına əmin idi. Azərbaycanda görəcəyi işlərin də planı artıq onda hazır idi. Hətta canı bahasına olsa da ölkəni düşdüyü ağır vəziyyətdən çıxarmalı, vətəndaş qırğınının qarşısını almalı, məmləkətə düşmən kəsilən ruslarla, farslarla da özünün böyük siyasəti ilə dil tapmalı, yenidən onlarla dostluq əlaqələri yaratmalıydı. O, çox böyük siyasətçi kimi başa düşürdü ki, başqa cür mümkün deyil. Ən əsas məqsəd isə Qarabağ müharibəsinin qarşısını almaq, atəşkəsə nail olmaqla xarici ölkələrdəki iş adamlarını, sahibkarları inandıraraq doğma yurdumuza gətirməklə dirçəlişə nail olmaq, güclü iqtisadiyyatla qüdrətli ordu yaratmaq və torpaqları geri almaq idi. Bu işlərin tezliklə reallaşacağına öz adı kimi inanırdı. Bu ali məqsədini millətimizə, xalqımıza inandırmaqçün tez-tez bu atalar sözünü deyirdi: "Ağıl olan yerdə gücə heç bir hacət yoxdur".

...Naxçıvandan gələn təyyarə Bakı Hava limanında yerə endi. Bir neçə dəqiqədən sonra dahi rəhbər trapda göründü. Buraya toplaşan insanların gurultulu səsləri eşidildi: "Xilaskar gəldi! Xilaskara eşq olsun!" Minlərlə insan onu gül-çiçəklə, alqışlarla qarşıladı. Söz yox ki, "Xalqın öz liderinə məhəbbətinin qarşısını almaq istəyənlər, özləri də bilmədən bu məhəbbəti daha da alovlandırır və onların qəlblərində əbədi heykələ çevirməsinə yol açırlar".

Ulu öndər "Mən həyatımın bundan sonrakı illərini xalqıma, onun xoş günlərinə bağışlamalıyam. Xalqımın əvvəlki əzəmətini, özünə inamını geri qaytarmalıyam. Bu xalq tarixlər boyu döyüşkən olub. O, hökmən öz gücünə inanmalı və tezliklə işğal altında olan torpaqlarını geri qaytarmalıdır" fikirlərini beynindən keçirərək inamlı addımlarla trapdan düşüb, özünəməxsus gülüşlə əlini yuxarı qaldırıb, hamı ilə salamlaşdı. Televiziyalar isə bu tarixi məqamı təkcə məmləkətə yox, bütün dünyaya yaydı...

Artıq xalq dərindən nəfəs alaraq, fikirləşirdi: "Ölkənin sahibi nəhayət, geri qayıtdı. Bu ölkə bir daha parçalanmayacaq, vətəndaş qırğını olmayacaq. Azərbaycan həqiqətən müstəqil dövlət kimi öz sözünü hər zaman layiqincə deyəcək. Onun üç rəngli bayrağı dünyanın hər yerində dalğalanacaq. Xalq öz gücünü, nəyə qadir olduğunu yenidən bəşəriyyətə sübut edəcək. Sübut edəcək!"...

**Ağalar İDRİSOĞLU**

# Molla rejiminin mərəzi

***Son hadisələrdən sonra papağını qabağına qoyub fikirləşirsən, əcəba bu İran niyə bu qədər şər işlərlə məşğuldur, məgər bu ölkənin siyasət menyüsündə xeyirli bir iş yoxdurmu? Həm də niyə bu əməllərini müsəlmanlar üzərində qurur? Ərəb dünyası ilə münasibəti bəllidir, sadəcə öz maraqlarından çıxış edərək iki ərəbi bir-birinə qırdırır, ən azından da inkişafına mane olur. Götürək Fələstini, 1947-ci il noyabr ayının 29-da BMT Baş Assambleyası Fələstin ərazisində yəhudi və ərəb dövlətlərinin qurulması haqqında 181 saylı qərar çıxartdı.***



Qərara əsasən Fələstinin 54%-i yəhudi, 45%-i isə ərəb dövlətinin payına düşürdü. Qüds şəhərinin yerləşdiyi qalan 1% ərazi isə beynəlxalq ərazi olmalı idi. Yəhudilər 1948-ci il may ayının 14-ü müstəqil İsrail dövlətinin yaradıldığını elan etdilər. Bəs Fələstin, niyə bu dövlət bu günə qədər yaranmayıb? İran da daxil olmaqla bəzi dövlətlər bunun günahını İsraildə axtarırlar. Amma günahkar təkcə Təl-Əviv deyil, fələstinlilər və İranın yaratdığı HİZBULLAH ekstremist təşkilatı bu işə mane olanların başında durur. İran mübarizə adı altında və HİZBULLAHın bilavasitə "terror-yardımı" ilə fələstinlilərin siyasi səhnədə fəaliyyətini əngəlləyir, onların dövlətçilik ruhunu sındırır. Digər tərəfdən də fələstinlilər üzərindən İsraillə regional liderlik uğrunda mübarizə aparır.

İranın digər müsəlman ölkələri Qətər, Bəhreyn, Yəmən, Səudiyyə Ərəbistanı, BƏƏ, Küveyt, İrak, Suriya, Pakistan, Əfqanıstan, Türkiyə və nəhayət Azərbaycanla münasibəti heç də xoş deyil. Hər kəsə öz iddiasını yeritməyə çalışır. Qonşuları ilə münasibətlərində qeyri-səmimi, bəziləri ilə də gərgin şəraitdə yaşayan İran təkcə xristian Ermənistanla qardaşlaşıb. Niyə? Əlbəttə, biz İran dövləti, molla rejimi ilə orada yaşayan xalqları eyniləşdirmək niyyətində deyilik. Azərbaycan türkləri, Farslar, Kürdlər, Giləklər və Mazandaranlılar, Lurlar, Bəluclar, Ərəblər, Türkmənlər və digər türk tayfaları bu ölkənin əsas etnik tərkibini təşkil edirlər. Amma bunların siyasi idarəçiliyini molla rejimi həyata keçirir. İdeoloji cəhətdən fars şovonizmi hakimlik edir ki, buna qarşı da zaman-zaman xalq çıxışları, etiraz aksiyaları baş verir.

Bəli, İran Ermənistanı daha çox sevir, onu müdafiə edir, "kiçik bacısı"nın müsəlman azərbaycanlılar tərəfindən zorlanacağını bəhanə edərək əzələ nümayiş etdirməyə çalışır. Amma iş təkcə bununla bitmir, Tehran bacısını qoruyan namuslu bir zat kimi irəli durmur. Bu "sevgi"nin arxasında başqa mətləblər dayanır. İran Ermənistanı sevmək görüntüsü yaratmaqla əslində Türk dünyasının qırılmış bağının bitişməsinə əngəl törədir. Ötən əsrin 20-ci illərində bolşeviklərin Zəngəzuru Ermənistana bağışlaması ilə başlanan ayrılığın sona çatması Tehranın istəklərinə, türk düşmənçiliyi siyasətinə uyğun deyil. Amma fars-molla rejimi anlamaqda çətinlik çəkir ki, Türk dünyasını bir-birinə bağlayan coğrafiya deyil, ürəkdir, könüldür. Coğrafi anlamda birlik isə İranın çabalarına, dirənişinə, xəttinin hansı rəngə boyanmasına baxmayaraq baş tutacaq.







Tehran olayları, Azərbaycanın səfirliyinə qarşı təşkil olunmuş terror aktı xristian təəssübkeşi, müzəlman düşməni olan bu ölkənin əsl mahiyyətini ortaya qoydu. Hadisənin məişət problem səviyyəsinə endirməyə çalışan molla rejimi bunun terror olmadığını israrla bildirsə də hər gün atdığı yanlış addımları Tehranı daha dərin quyuya salır, "üzürü günahından böyük" effekti yaradır. Bu gün Azərbaycanda iransevərlərin, mollakratların canlanmasının arxasında da İrandan alınan tapşırıqlar dayanır. İran hər vəchlə sübut etməyə çalışır ki, hadisə onun ixtiyarından kənarda baş verib. Molla rejimi Azərbaycanda fəaliyyət göstərən bəzi iranyönümlü təbliğat maşınını işə salıb. Qeyd edək ki, xüsusi xidmət orqanlarının keçirdikləri əməliyyatlar da dediklərimizi bird aha sübut edir.

Bəs molla rejiminin mərəzi nədir, niyə qonşuluq, dostluq münasibətlərini yerə vuraraq qanlı olaylar törədir? Bunun birinci səbəbinin Türk dünyası ilə bağlı olduğunu dedik. İkinci səbəb isə, Azərbaycanın İsraildəki Səfirliyinin fəaliyyətini əngəlləməkdir. Bunun üçün Azərbaycana öz aləmində əzələ nümayiş etdirir. Əslində Londonda Səfirliyimizə qarşı olan hücumun arxasında da molla rejimi dayanır. Həmin hücumu törədən qruplaşma İran fanatları olan qruplaşma ilə yaxın münasibətlərə malikdir. 8 nəfərlik dəstənin əksəriyyəti İran əsillidir. Küveytdən İngiltərəyə miqrasiya etsələr də, özlərini İran hakimiyyətinə müxalif kimi təqdim etsələr də, əslində bu, sifarişi molla rejimindən aldıqları hər kəsə bəllidir.



İran və Ermənistanı birləşdirən dəyərlər də ortadadır. Hər iki ölkənin mahiyyətində terrorçu xarakteri formalaşıb. Terror, zorakılıq olmadan bu ölkələrin mövcudluğu da sual altına düşə bilər. İranın sanksiyalardan yayınmasında Ermənistan böyük rol oynayır. Bu ölkənin bankları İranın "çirkli pulları"nın yuyulmasında aktiv iştirak edir. Əsasən Ermənistanın pənah apardığı Avropa tərəfindən sanksiyalara məruz qalan İran İrəvandan istifadə etməklə ayaq üstə durmağa çalışır. Ermənistan isə İrandan yeni eskalasiya, təxribatlar üçün silah alır.

Son hadisələr isə İranın Azərbaycana qarşı təxribatlarının nə qədər geniş, əhatəli olduğunu üzə çıxardı. Məlum oldu ki, molla rejimi müstəqillik dövrü ərzində Azərbaycana 3500 agent sızdıra bilib. İlahiyyat, siyasət, iqtisadiyyat, mədəniyyət, təhlükəsizlik, mülki və hərbi sahədə Tehrana xidmət etməli olan xəbərçilər ordusu formalaşdırıb. Azərbaycan kəşfiyyatı 1997-2011-ci illər ərzində fəaliyyəti xüsusi proqram çərçivəsində həyata keçirilən agentləri müəyyən edib. Lakin 700 agent Azərbaycanı tərk edə bilib.

1996-cı ildə İranda Azərbaycan masası adlı xüsusi bölmə yaradılıb. İlk addım olaraq İran xüsusi xidmət orqanlarının "Şaziman-ı İttilaat" və İran İslam İnqilabı Keşikçiləri Korpusunun əməkdaşlarından Azərbaycanın coğrafiyası, dili və mədəniyyəti üzrə xüsusi təlim keçmiş 4000 kəşfiyyatçı seçilib.

Bu agentlərin hamısı Azərbaycana azərbaycanlı qadınlarla evlənərək daxil olublar. Azərbaycan qanunlarına əsasən, İran agentlərinin vəzifə təlimatları da dəyişdirilib və evləndikdən beş il sonra vətəndaşlıq əldə etmək hüququ vasitəsilə onlara daha geniş imkanlar verilib. Vətəndaşlıq hüququ olanlar daha strateji sahələrə yönləndirilib. Bəzi məlumatçılar kommersiya sferasında çalışsalar da, digərləri mülki və hərbi diplomatiya, siyasət, QHT-lər, mədəniyyət, incəsənət və ilahiyyat kimi sahələrə nüfuz edibələr.

Bir müddət əvvəl Azərbaycanın Tehrandakı səfirliyinə qanlı basqın həyata keçirən Yasin Hüseynzadənin də həmin komandadan olduğu müəyyənləşib. Urmiyyədə kitab satıcısı olan qardaşı Rəhman Hüseynzadənin İİKK-nin kəşfiyyatında xüsusi vəzifələri olduğu üzə çıxıb. Yanvarın 27-də səfirliyə hücum planının əsası səfirliyin bütün əməkdaşlarının öldürülməsi idi. Azərbaycan diplomatlarının və təhlükəsizlik qüvvələrinin müqaviməti bu planı alt-üst edib.

İran-fars-molla rejiminin bir iyrənclyi də Xoy şəhərində baş verən təbii hadisə - zəlzələ nəticəsində üzə çıxdı. Minlərlə insanın yaralandığı, minlərlə evin dağıldığı,ölənlərin də olduğu hadisədə zərərçəkmişlərə yardıma gələnlər arasında İranın rəsmi dairələrinin olmaması mollaların Azərbaycan türklərinə olan münasibətini büruzə verir. Sırf etnik səbəbdən Tehran rejimi yarmım göstərmək istəmir. Belə bir ölkədə mövcud şərlər altında yaşamaq olarmı? Əlbəttə, yox. Bunun yeganə çıxış yolu bağımsız bir ölkə qurmaq, MÜSTƏQİLLİKDİR!!!

***V.Vəliyev***

# Qərbi Azərbaycana qayıdışla bağlı konsepsiya hazırlanıb



Qaçqınların və Məcburi Köçkünlərin İşi üzrə Dövlət Komitəsi yanında İctimai Şuranın sədri Anar Xəlilovun "Səs" qəzetinə müsahibəsi

***- Anar müəllim, Qərbi Azərbaycana qayıdışla bağlı konsepsiya hazırlanıb. Sizcə, bu konsepsiyanın həyata keçirilməsi hansı müddətə mümkün ola bilər?***

- Məlum olduğu kimi, 2022-ci ildə "Azərbaycan Qaçqınlar Cəmiyyəti" kimi fəaliyyət göstərən təşkilat "Qərbi Azərbaycan İcması" adı altında indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların hüquqlarını müdafiəsi ilə bağlı yeni strateji metodlara əsaslanan fəaliyyətlə məşğuldur. Artıq Qərbi Azərbaycana qayıdışla bağlı yeni konsepsiya hazırlanıb. Tarixi Qərbi Azərbaycan torpaqlarından azərbaycanlıların qovulması XX əsrin əvvəllərindən başlayaraq sonlarına qədər dörd dövrü əhatə edən illərlə mərhələli şəkildə aparılmışdır. Ən nəhayət, 1987-91-ci illərdə Qərbi Azərbaycanda yaşayan 200 minə yaxın soydaşımız tamamilə oradan qovulmuşdur. Bununla da Qərbi Azərbaycanda öz tarixi dədə baba yurdlarında yaşayan sonuncu azərbaycanlılar da Ermənistandan qovulmuş onların hüquqları kobud şəkildə pozulmuşdur. Beynəlxalq hüquq normalarına uyğun olaraq hələ də Qərbi Azərbaycan torpaqlarından qovulan azərbaycanlıların hüquqları bu günə qədər təmin edilməmişdir. Heç bir Beynəlxalq təşkilat və dünyanın aparıcı dövlətləri bu məsələ ilə bağlı ədalətli mövqe sərgiləməmişdir. Necə ki, BMT tərəfindən tanınan Azərbaycan ərazilərinin 30 ilə yaxın müddətdə işğalına göz yumduqları kimi. Yalnız Azərbaycan öz gücünə 44 günlük müharibə ilə ədaləti bərpa etdi və torpaqlarımız azad olundu. Bu məsələdə də biz yalnız öz gücümüzə arxalanırıq. Hesab edirəm ki, Cənab Prezident İlham Əliyevin bu istiqamətdə apardığı siyasət də öz müsbət nəticəsini yaxın gələcəkdə verəcəkdir. Hazırlanan konsepsiya da bu siyasətin tərkib hissələrindən biridir. Konsepsiya özündə bütün Beynəlxalq hüquq və normalara uyğun Qərbi Azərbaycan qaçqınlarının öz yurdlarına qayıdışını tam əhatəli surətdə özünün əsas məqsədi kimi ortaya qoyur. Konsepsiyada söhbət qayıdışın Beynəlxalq hüquqa əsaslanaraq BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının tərəfdaşlığı ilə birgə həyata keçirilməsi bəyan edilir. İcma qayıdış prosesinin Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə, Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Pakta, Qaçqınların Statusuna dair Konvensiyaya və digər beynəlxalq aktlarda təsbit olunmuş qaydalara uyğun olaraq həyata keçirilməsini təmin etməyi məqsəd kimi qarşısına vəzifə qoyur. Hesab edirəm ki, qayıdış prosesinin konsepsiyaya uyğun həyata keçirilməsində Beynəlxalq aləmdə çoxlu fəaliyyətlər həyata keçirilməlidir. Bu prosesə Vətəndaş cəmiyyəti institutları da cəlb edilməlidir. Bütün işlər konsepsiyaya uyğun sistemli şəkildə aparılaraq düşünürəm ki, yaxın gələcəkdə biz bu gün işğaldan azad olunmuş ərazilərimə olduğu kimi, Qərbi Azərbaycan ərazilərinə də qayıdışın şahidi olacağıq.

***- Verilən məlumata görə, artıq Qərbi Azərbaycan İcmasından 100 mindən çox Qərbi Azərbaycanlı qeydiyyatdan keçib onların sayı 250 mindən çox ola biləcəkmi?***

- Yuxarıda qeyd etdiyim kimi, Qərbi Azərbaycan torpaqlarında soydaşlarımızın qovulması prosesi yüz illərlə aparılıb. Burada ümumi konkret say demək çətindir. Amma rəqəmin milyonla ölçülməsi faktdır. Yalnız son 1988-ci il hadisələrində bu rəqəm 200 minlə ölçülür. Əsasən də, bu gün o insanlar və onların yeni nəsli qaçqın statusundadır. Lakin XX əsrin əvvəli və ortalarında qovulmuş insanlar da bu gün həyatda olmasalar belə, onların yeni nəsilləri varis kimi öz hüquqlarını qoruyur və icmanın üzvü olmaq hüququna malikdirlər. Buna görə də, artıq icmanın üzvü olmuş 100 min sayın yaxın günlərdə daha çox artacağını proqnoz vermək olar.

***- Qərbi Azərbaycan İcması molla rejiminin törətdiyi terror əməli ilə bağlı BMT-də bəyanat yayıb. Sizcə, dünya birliyinin həmin bəyanata reaksiyası necə olacaq?***

- Azərbaycanda fəaliyyət göstərən bütün Vətəndaş cəmiyyəti institutları ilə yanaşı, Qərbi Azərbaycan İcması da bir çox beynəlxalq təşkilatlara və eləcə də BMT-yə bu terror hadisəsi ilə bağlı haqlı etiraz müraciəti etmişdir. Artıq dünyanın əksər ölkələrindən bu müraciətlərə dəstəklər gəlməkdədir və bu terror hadisəsi qətiyyətlə pislənilir. Ümumiyyətlə, bu terror hadisəsini bütün dünya pisləməkdədir. Dünya İran dövlətinin terror əməllərinin çox şahidi olub və terrora dəstək verən ölkə kimi tanıyır. Bu hadisənin də məhz arxasında İran dövlətinin durduğunu öz bəyanatlarında qeyd edirlər.

***- Qərbi Azərbaycan İcmasının fəaliyyəti Ermənistanla yanaşı, bəzi xarici qüvvələri də narahat edib. Ermənistan başadüşüləndir, bəs digər dövlətlər niyə narahat olurlar?***

- Qərbi Azərbaycan İcmasının yaranması Ermənistanı dərhal narahat etməyə başladı. 44 günlük məğlubiyyətin dərsləri erməni ictimaiyyətini düşündürməyə məcbur edir ki, bu icmanın yaradılması bizi növbəti hədəfimizə öz yurdlarından qovulmuş soydaşlarımızı tarixi torpaqlarımıza qaytarmağımıza çatdıracaq. Məhz buna görə də, narahatdırlar. Eyni zamanda, erməni havadarlarını da bu məsələ çox narahat edir. Bu da başa düşüləndir Azərbaycanın günü-gündən güclənməsi onların da yuxusuna haram qatır. Güclü Azərbaycan bir neçə əsrin ərzində törədilən ədalətsizliklərin sonunu gətirərək ədaləti bərpa edəcəkdir. Bu zaman ermənilərlə yanaşı, onların yaxın havadarları da dərslərini alacaqlarını başa düşür. Uzaq havadarlarının da, təbii ki, geosiyasi mübarizələr fonunda narahatçılıqları vardır. Kimin narahat olmasından asılı olmayaraq Azərbaycan öz güclü liderinin rəhbərliyi ilə güclənir və hədəfinə doğru inamla irəliləyir.

***Gülyana***




# Haaqa prosesi - Bakının İrəvana qarşı iddiaları nəticəsini verir

## *Ermənistan bu dəfə BMT-nin Beynəlxalq İnsan Haqları məhkəməsində rüsvay oldu*





***Əslində, Ermənistan rəhbərliyi özü-özünü çətin vəziyyətə salıb. Yəni Azərbaycana qarşı əsassız iddialar qaldırmaqla BMT-nin İnsan Haqları Məhkəməsində, sözün əsl mənasında, rüsvay olub. Rəsmi İrəvanın Laçın-Xankəndi yolu ətrafında, daha dəqiq desək, orada keçirilən ekoaksiya ilə bağlı qaldırdığı isterik səs-küyü isə İnsan Haqları Məhkəməsi tərəfindən arqumentli suallarla cavablandırıldı. Bəs həmin proses zamanı kimlər hansı faktları irəli sürməklə Ermənistanı dalana dirədi?***

### Azərbaycanın mövqeyini müdafiə edən professor Piter Qoldsmit əsaslı faktları ortaya qoyub

Misal üçün, BMT-nin İnsan Haqları Məhkəməsində Azərbaycanın mövqeyini müdafiə edən professor Piter Qoldsmit məhz faktlar və sübutlar əsasında Laçın yolu ilə bağlı bir sıra mühüm məqamlara toxunub. O, məhkəmə prosesində Beynəlxalq Qırmızı Xaç Təşkilatına və Rusiya sülhməramlıları kontingentinə məxsus humanitar məqsədli yük maşınlarının Laçın yolundan keçdiyini əks etdirən videomateriallar təqdim edib.

### İnsan Haqları Məhkəməsini güldürən erməni iddiası - ekoaksiyaçı gənclər "qorxulu bozqurdlar imiş" (?!)

Lakin maraqlıdır ki, təqdim edilən kifayət qədər əsaslı faktlara rəğmən, erməni tərəfinin mövqeyindən çıxış edən professor Linos-Aleksandr Sitsilianos sözügedən prosesdə növbəti dəfə və əslində, boş yerə "qorxulu nağıllar" danışmağa başlayıb. Məsələn, onun əsassız iddiasına görə, sən demə, Laçın yolunda ekoaksiya keçirənlər heç də ekofəallar deyilmiş (?). Adıçəkilən şəxs əlində heç bir fakt, dəlil, isbat olmadan - (diqqət edin!) iddia edib ki, orada toplaşanlar "boz qurdlardır" (???!!!) Çox gülünc və istehza xarakterli iddianın ortaya atılması isə əlbəttə ki, erməni tərəfinin qeyri-ciddiliyindən məlumat verir. Əbəs deyil ki, onun iddiaları prosesdə iştirak edənlərin gülüşləri ilə müşahidə olunub və...

Və Azərbaycanın mövqeyini layiqincə müdafiə edən cənab Qoldsmit böyük ekran vasitəsi ilə müxtəlif vaxtlarda çəkilmiş azərbaycanlı ekofəalların fotoşəkillərini nümayiş etdirib. Məhz bu faktlardan sonra erməni tərəfi heç bir faktla çıxış edə bilməyib.

### Rüsvayçı erməni isterikası beynəlxalq hüquq sisteminin zəhləsini tökməyə hesablanıb

Ən əsası isə vurğulanıb ki, Ermənistanın "blokada" və s. iddiaları ilə bağlı faktlarını prosesə təqdim etmək üçün dörd həftə vaxtı olub. Qoldsmit sual edib: "Hanı onlar? Hanı o sübutlar? Onun (erməni tərəfinin) 50 günü olub ki, müvafiq təşkilata Azərbaycanla bağlı öz dəlillərini gətirsin. Bəs hansı o dəlillər? Ermənistanın əsas müraciəti faktiki olaraq və sadəcə, çılpaq iddialara söykənir ki, Azərbaycan bu iddiaları qətiyyətlə rədd edir. Və Ermənistan öz iddialarını təsdiq edə biləcək heç bir sübutlar gətirə bilməyib".

Beləliklə, Haaqa prosesində Azərbaycana qarşı iddia qaldıran Ermənistanın əlində əsasların olmaması İrəvanın özünün tələyə düşməsi ilə nəticəsini tapıb və bütün bunlardan sonra artıq beynəlxalq hüquq da açıq gözlə görür ki, rüsvayçı erməni isterikası beynəlxalq hüquq sisteminin zəhləsini tökməyə hesablanıb...

***Rövşən RƏSULOV***

PROSES+ŞƏRH

# Bir çıxış yolu var: PUA vasitəsi ilə Vardanyana nöqtə zərbəsini endirmək



"Hraparak"ın iddiasına görə, Qarabağda Azərbaycana qarşı hərbi təxribat hazırlanır



Qarabağda, Rusiya sülhməramlıları kontingentinin (RSK) müvəqqəti yerləşdikləri ərazilərinə qalan separatçı tör-töküntülərinin öz cinayətkar rejimlərini ayaqda saxlamaq cəhdləri, ilk növbədə, Bakının səbrini tükəndirmək üzrədir. Lakin daha bir maraqlı məqam budur ki, artıq separatçıların bir az da irəliyə gedərək öz təbirlərincə "müharibə anonsları" vermələri Ermənistanı da narahat etməyə başlayıb. Fakt budur ki, 44 günlük İkinci Qarabağ müharibəsindən sonra, eləcə də növbəti müddətlərdə Azərbaycan Silahlı Qüvvələrinin həm Qarabağda, həm də Ermənistanla müəyyən olunmamış sərhədlərdə həyata keçirdiyi mövqe dəqiqləşdirmə əməliyyatlarının ardınca rəsmi İrəvandan Qarabağdakı separatçılara mesaj yollanıldı ki, onlar növbəti silahlı toqquşmalara səbəb ola biləcək bəyanatlar, fikirlər səsləndirməkdən çəkinsinlər. Yəni, bu tələb faktiki olaraq Ermənistandakı siyasi hakimiyyətin Qarabağ separatçılarından imtinası anlamını daşıyır.

### Belə bir vəziyyətin tezliklə, hətta dərhal aradan qaldırılması üçün daha ciddi tədbirlərin görülməsi zərurəti yaranır

Düzdür, hazırda RSK-nın müvəqqəti məsul olunduğu ərazilərdə Ermənistana məxsus silahlıların, hərbi texnikaların olması faktı mövcuddur və Ermənistan rəhbərliyi bunu nə qədər inkar etməyə çalışsa da, peyk və s. vasitələrlə əldə edilmiş fotolar, video-görüntülər tamamilə əksini göstərir. Ona görə də, əgər bu gün Qarabağdakı cinayətkar rejim yenidən müharibə ritorikalı bəyanatlar səsləndirirsə, artıq



belə bir vəziyyətin tezliklə, hətta dərhal aradan qaldırılması üçün daha ciddi tədbirlərin görülməsi zərurəti yaranır.

Beləliklə, Ermənistanın "Hraparak" nəşrinin yazdığına görə, məhz Rusiyadan Qarabağa atılmış "desant", eləcə də dələduz milyarder kimi daha çox tanınan Rusiyanın keçmiş vətəndaşı Ruben Vardanyan Azərbaycana qarşı silahlı təxribat hazırlayır. Nəşr yazır ki, Vardanyan Qarabağ erməniləri ilə görüş keçirdiyi zaman əvvəlcə hər şeyin tezliklə yaxşı olacağını deməklə onları ümidləndirməyə çalışıb, sonra isə bir az da irəliyə gedərək hərbi qarşıdurmanın yaşanacağını istisna etməyib. Və maraqlısı da budur ki, Vardanyanın sözünü dolayısı ilə cinayətkar rejimin qondarma "prezidenti" Araik Arutyunyan da təsdiqləyib.

### "Hraparak": "Artsaxda" olan silahlar Ermənistandakından çoxdur" (?!)

"Hraparak" yazır: "Qarabağ sakinləri ilə qapalı görüşündə o (Araik Arutyunyan) qeyd etdi ki, "artsaxda" olan silahlar Ermənistandakından çoxdur. Lakin o, Vardanyanın mövqeyinə qarşı çıxış edib. Müharibədən yayınmaq üçün Azərbaycanla, yalnız dialoq vasitəsi ilə danışmaq lazımdır. Əks halda müharibə "artsax" və "artsaxlılar" üçün son olacaq".

Çox yəqin ki, Araik Arutyunyanın son ifadəsi elə onun özünə çox yaxşı bəllidir. O, 2020-ci ili əsla unutmayıb. Ancaq...

Ancaq buna rəğmən, biz əsas diqqəti onun Qarabağdakı silahların Ermənistandan çox olması iddiasına tərəf yönəltməliyik.

Vardanyanın ssenarisi - "acından ölən artsax" səhnəsini yaratmaq, əhalinin ərzaq təminatlarını bağlamaq və sonra da hansı nəticə verəcəyini bilə-bilə təxribata yol açmaq

Birincisi, bu, bir daha sübut edir ki, ekofəalların aksiyalarına qədər Laçın-Xankəndi yolu Qarabağa silahların daşınması üçün istifadə edilib. Əbəs deyil ki, Vardanyan artıq 50 gündən artıqdır ki, özünə yer tapa bilmir. "Ac əhali" isə onun ümumiyyətlə vecinə deyil.

İkincisi isə Qarabağın silahlanması yalnız Vardanyanın özünə sərf edir və o qarabağlı erməniləri silahlı toqquşmalara hazırlayır. Əslində, maraqlı bir ssenari üzə çıxır - "acından ölən artsax" səhnəsini yaratmaq, əhalinin ərzaq təminatlarını bağlamaq və sonra da hansı nəticə verəcəyini bilə-bilə təxribata yol açmaq.

Son olaraq isə ortada yalnız bir sual qalır - axı Vardanyan nəyə nail olmağa çalışır? Bax, bu sualın cavabı bəri başdan məlumdur: PUA vasitəsi ilə ona nöqtə zərbəsinin endirilməsi. Məhz bundan sonra hər şey öz yoluna dönəcək. Gözləyək...

***Rövşən RƏSULOV***

SİYASİ RAKURS



Mətanət Məmmədova

# Özümüz azmış kimi...

***Onsuz da sosial şəbəkələrdən düzgün istifadə edə bilmədiyimizə görə yaman günə qalmışdıq. Tiktok deyilən sosial şəbəkə həyatımıza daxil olandan sonra isə ta bizdən biz deyə bir şey qalmayıb.Vallah, dərindən düşünəndə adamın dəsmal götürüb ağlamağı gəlir. Niyə? Ona görə ki, biz nə üçün bu günlərə gəlib çıxmalı, bu kökə düşməli idik?Bu günlərdə Tiktokda yeni dəb yaranıb. Özümüz azmış kimi, indi də azyaşlı uşaqlarımızı Tiktok qəhrəmanlarına çevirmişik. Nədir onların günahı? Nə üçün onları oyuncaq edib oynadırıq? Məsələn, bilmirəm, anadır, xaladır, bibidir, kimdir, uşağa kənardan suallar verir, çəkir, paylaşır.***

Həm də elə suallar verir ki, həm onun yaşına uyğun deyil, həm də kənardan dinləyənlərin ətini tökür. Yazıq uşağı meymuna çevirib özləri də gülür, camaatı da güldürürlər. Niyə gülürlər, nə səbəbə gülürlər, bilmirəm, amma həm də əməlli-başlı bəyənmə toplayırlar.Baxırsan və düşünürsən ki, İlahi, biz bu günlərə də qalacaqdıq? Bu uşağın axı Tiktokda nə işi ola bilər? Hansı ağılla, hansı düşüncə ilə bu uşağı burada meymuna çeviririk?Başqa bir videoda isə uşağın məktəb tapşırıqlarını həll etməsi ilə bağlı səhnə paylaşılır. Uşağa müəllimin çox tapşırıq verməsi, uşağın isə bunu sızıldamaqla qarşılaması, "mən bu qədər tapşırığı necə həll edəcəyəm",- deyərək ərköyünlük etməsi və kənardan bəzi əttökən suallarla bu məsələnin bir qədər də qabardılması və gülüş hədəfinə çevrilməsi həqiqətən ikrah hissi doğurur.Digər videolarda oğlanlı-qışlı körpə uşaqların yatmasından tutmuş gülümsəməsinədək, süd əmməsindən geyiminin dəyişdirilməsinədək, valideynlərinin onları sevməsinədək-hər mövzuda videolarla qarşılaşmaq mümkündür.Deməli, özümüz azmış kimi, keçdik uşaqlarımıza. Özümüz heç ey, özümüzdən ta danışmağın yeri də yoxdur. Özümüzlə bağlı videolara baxanda, ümumiyyətlə, adam özünə ölüm arzulayır ki, İlahi, nə olardı, bunları görüncə, bizi öldürərdin, bütün bu eyiblərimiz torpağın altında örtülü qalardı. Ancaq çox təəssüf ki, Allah ölümü də bəzi hallarda bizə çox görür və deyir ki, gedin, özünüzü biabır edin ki, cəhənnəmdə yerlər boş qalmasın. Biz də cənnətin də, cəhənnəmin də elə bu dünyada olduğunu fikirləşərək, "dünya beş günlükdür",- deyib, ağlımızdan, dərrakəmizdən və əslində özümüzdən vaz keçirik.Cəhənnəmə keçək, gora keçək. Amma uşaqlarımızdan keçməyək. Onların sosial şəbəkələrdə nə işi var? Bu məsum körpələrin, hələ dünyanın eybəcərliklərindən əsla xəbəri olmayan, gələcəkdə bizim həmin o videolarımıza baxarkən utandığından başını haraya soxacağını bilməyən bu uşaqların günahı nədir?Nə üçün onları oyunlarımıza alət edirik? Onları bütün dünyaya nümayiş etdiririk? Nəyə lazımdır? Nə üçün o videoların çəkilməsinə sərf etdiyimiz vaxtda uşaqlarımızı təmiz havaya çıxarmırıq, parklara aparmırıq? Nə üçün həmin o dəyərsiz vaxtı dəyərləndirib onlara kitab oxumuruq? O dəqiqələri uşaqlarımızın mənalı istirahətinə çevirmirik?Vallah, biz xəstəyik. Sözün həqiqi mənasında, bizə həkim gərəkdir. Ruhumuzu, psixologiyamızı söküb yenidən yığan, bizi özümüzə qaytaran həkimə ehtiyacımız var. Amma o həkim haradadır? Gəlin Tiktokda da, digər sosial şəbəkələrdə də o həkimləri axtaraq. Bəlkə tapa bilərik ki, bu xəstəlikdən bizi xilas edə.İnşallah ki, taparıq. Tapmalıyıq da. Çünki hazırda bundan çox ehtiyacımız olan heç nə yoxdur.

# Azərbaycanda qadınlar sünnət olunur?

***Dünyada 6 fevral Qadın Sünnətinə Sıfır Tolerantlıq Günüdür. Birləşmiş Millətlər Təşkilatının hesablamalarına görə, bu gün dünyada yaşayan 200 milyon qız və qadın müxtəlif üsullarla sünnət edilir. Bu, hər 20 qadın və qızdan birinə şamil olunur.***



Baxmayaraq ki, qadın sünnəti xüsusilə Afrika və Yaxın Şərqin 30 ölkəsində cəmləşmişdir. Amma Asiya və Latın Amerikasının bəzi ölkələrində də tətbiq edilir. BMT bildirir ki, bu təcrübəyə Qərbi Avropa, Şimali Amerika, Avstraliya və Yeni Zelandiyada yaşayan immiqrant əhali arasında da rast gəlinir.

SİA mövzu ilə bağlı araşdırma aparıb.

BMT hər il fevralın 6-da bu təcrübəyə son qoymağa çağırır. Keniyanın İsiolo bölgəsindəki Borana qəbiləsindən olan Bişara Şeyx Hamo qadın sünnətinin həm fiziki, həm də ruhi sağlamlığa qalıcı təsir göstərdiyini deyir. Bişara deyir: "Mən 11 yaşımda sünnət oldum. Nənəm deyirdi ki, hər qız təmiz və saf olmaq üçün bunu etməlidir".

Ancaq heç kim onun həyatı boyu sidik ifrazı problemləri, təkrarlanan infeksiyalar və menstruasiya pozğunluğu kimi təsirlərini, yeri gələndə ancaq keysəriyyə ilə doğum edə biləcəyini söyləməyib. Bu gün o, qadınların genital sünnətlərə məruz qalmasına qarşı mübarizə aparan fəaldır.

### Qadın sünnəti nə deməkdir?

Qadın sünnəti olaraq da bilinən bu təcrübə qadınların xarici cinsiyyət orqanlarının qəsdən kəsilməsi və ya çıxarılmasıdır. Bu, adətən klitorisin və ya kiçik dodaqların kəsilməsini nəzərdə tutur. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) "qeyri-tibbi səbəblərə görə qadınların reproduktiv orqanlarına xəsarət yetirən istənilən proseduru" cinsiyyət orqanlarının sünnəti kateqoriyasına aid edir.

Bu təcrübəyə məruz qalan qadınlardan biri olan misirli blogger və kinorejissor Omnia İbrahim deyir ki, bu, qadınların şəxsi münasibətləri və özləri haqqında düşüncələri üçün çox narahatedici və zərərlidir. O, "Buza dönürsən və heç nə hiss etmirsən, heç kimi sevə bilməzsən, istək ola bilməz" deyir.

Omnia deyir ki, o, yetkin həyatı boyu qadın sünnəti səbəbindən psixoloji təsirə məruz qalır. Yaşadığı cəmiyyətin "İnsan bədəni seks deməkdir, seks isə günahdır" sözləri ilə böyüdüyünü və "bədənini lənətlənmiş gördüyünü" belə izah edir: "Özümə sual verirdim. Onlar mənə qorxmalı olduğunu söylədiyi üçün seksə nifrət edirdim, yoxsa sadəcə seks istəmirdimmi?"

BBC-yə danışan Keniyalı Bişara dörd qızla birlikdə sünnət olunduğunu deyir: "Gözlərimi və əllərimi bağladıqdan sonra ayaqlarımı bir-birindən ayırıb məlum hissəni kəsdilər. Bir neçə dəqiqədən sonra kəskin ağrı hiss etdim. Qışqırdım, amma məni eşidən yox idi. Ayağa qalxmağa çalışdım, amma kimsə ayaqlarımdan tutdu. Mümkün olan ən pis tibbi müdaxilələrdən biri olduğu üçün bu, ümumiyyətlə, qeyri-gigiyenik idi. Oradakı qızların hamısında eyni kəsici alətdən istifadə etdilər.

Ağrıları kəsmək üçün istifadə etdikləri dərman ənənəvi bitki mənşəli müalicədən ibarət idi". Qadın sünnəti bir çox ölkələrdə qadağan edilsə də, Afrika, Asiya və Yaxın Şərqdə bu, adi bir təcrübədir.

### Qadınlar niyə sünnət edilir?

Qadın sünnətinin müxtəlif səbəbləri var:

-Cəmiyyət tərəfindən qəbul olunmaq istəyi

- Dini inanclar

- Gigiyena ilə bağlı yanlış məlumatlar

- Bakirəliyin qorunması

- Qadınların evlənməsinə şərait yaratmaq

- Kişilərin cinsi həzzinin artırılması bunlardan bəziləridir.

Bəzi mədəniyyətlərdə bu, yetkinliyə keçid mərasimi və nikahdan əvvəl müalicə kimi qəbul edilir. Sağlamlıq və ya gigiyenik cəhətdən heç bir faydası olmasa da, bu proseduru tətbiq edən cəmiyyətlər qadının cinsi orqanının kəsilməsi lazım olduğuna inanır.

Bu daha çox insanın iradəsi əleyhinə tətbiq edilir. Səhiyyə rəsmiləri bu təcrübəni qadınlara qarşı zorakılıq və insan hüquqlarının pozulması kimi qiymətləndirirlər. Uşaqlara tətbiq edildikdə isə uşaq istismarı olaraq görülür.









### Qadın sünnətinin 4 növü var:

1. Klitoridektomiya: Həssas klitoris və ətraf dərinin hamısının və ya bir hissəsinin çıxarılması.

2. Eksizyon: Cinsi orqandakı klitorisin və kiçik cinsiyyət dodaqlarının bir hissəsinin və ya hamısının çıxarılması.

3. İnfibulyasiya: Həm daxili dodağın, həm də vajinanı əhatə edən xarici dodaqların kəsilməsi və strukturunun dəyişdirilməsi. Bu tətbiq kifayət qədər ağrılıdır və infeksiya riski daşıyır. Menstrual qanaxma və sidik ifrazı üçün vajina və uretra arasında yalnız kiçik bir boşluq qalır. Bu diapazon o qədər kiçikdir ki, bəzən cinsi əlaqə və doğuş üçün kəsilməlidir. Bu, doğuş zamanı həm körpə, həm də ana üçün risk yaradır.

4. Klitorisin və ya cinsiyyət nahiyəsinin pirsinq, qaşıma və oyma kimi bütün zərərli əməliyyatlar.

### Hansı ölkələrdə tətbiq olunur?

Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondunun (UNICEF) və Ümumdünya Səhiyyə Təşkilatının işində iştirak edən qadınların çoxu öz icmalarında qadın sünnəti haqqında danışmağın tabu olduğunu deyirlər. Ona görə də bununla bağlı verilən rəqəmlər təxminlərə əsaslanır.

Bəzən qadınlar kənardan tənqid olunmaqdan qorxaraq bu barədə danışmırlar. Bəzən, prosedur qeyri-qanuni olduqda, onların ailələrini və ya sünnəti həyata keçirən icma üzvlərini mühakimə etmək qorxusu səbəbindən susurlar. Bu təcrübəyə Qərbi Avropa, Şimali Amerika, Avstraliya və Yeni Zelandiyada yaşayan immiqrant əhali arasında da rast gəlinir. UNICEF-in Afrika və Yaxın Şərqin 29 ölkəsini əhatə edən hesabatında qeyd olunur ki, bu ölkələrin 24-də qadın sünnətinə qarşı hüquqi tənzimləmələr olsa da, hələ də geniş şəkildə tətbiq olunur.

### Bəs, Azərbaycanda qadın sünnəti varmı?

Əsasən, Afrika və Yaxın Şərqdə yerləşən ölkələrdə müşahidə olunan qadın sünnətinin hazırda Azərbaycanda da həyata keçirilməsi ilə bağlı iddialar sosial şəbəkələrdə geniş müzakirələrə səbəb olub. Ölkənin şimal-qərbində, Zaqatala-Balakən rayonlarının bəzi kəndlərində belə bir adətin olması müzakirə edilir. Belə ki, mənbələrə görə Zaqatalanın Danaçı, Car və Balakənin bəzi kəndlərində qadınlar uşaq yaşlarında sünnət olunur. Bu sünnətin normal qadın sünnətində olduğu kimi klitorisin və ya vulvanın kəsilməsi ilə deyil, klitorisi çərtərək azca qan çıxardılması ilə tətbiq edildiyi deyilir.

Əldə olunan nəticələrə görə, xeyli insan sözügedən bölgədə belə bir adətin olmasından xəbərdar olduğunu və həmin ərazidə yaşayan avar milləti tərəfindən davam etdirildiyini bildirir. Hətta bunu təstiqləyən şəxslər də var. Zaqatalanın Danaçı, Yolayrıc, Makov, Car, Matsex kəndlərində qadın sünnəti var, amma Afrikada olduğu kimi deyil. O sünnət işgəncəlidir, amma bir hissə var ki. oradakı sünnət çox adi formada olur. Çox vaxt 2-3 yaşlarında edilir. Uşaq onu heç hiss də etmir.

Bildirək ki, bölgədə qadınlar sünnətlə bağlı məsələni kişilərdən gizlədirlər.

*Ayşən Vəli*

ARAŞDIRMA

# Pul yığmaq məsələsi

*Deyirəm, hər dövrün öz dərdi-səri var, deyilmi? Bax, Molla Nəsrəddin dövründə mollanəsrəddinçilərin bir amalı vardı: insanları maarifləndirmək. Bunun üçün dəridən-qabıqdan çıxdılar rəhmətliklər. Nə qədər təzyiqə, həbslərə məruz qaldılar, lakin tutduqları yoldan heç kimsə heç bir vəchlə onları döndərə bilmədi. Əllərindən nə gəlirdisə, etdilər. Əslində çox şey etdilər. İnsanların şüuruna elə toxum səpdilər ki, tez bir zamanda cücərdi və məhsulu maarif oldu, elm oldu.*



Məsələn, cümhuriyyət dövründə cümhuriyyətçilərin amalı vardı, onlar cümhuriyyət qurmaq istəyirdilər. Qurdular da. Düzdür, ətrafdakı düşmənin bağrı çatladı, ürəyi partladı, başladı onlara quyu qazmağa ki, cümhuriyyət nədir, azadlıq, müstəqillik nədir, siz kölə olmalısınız. Etdilər də. Cəmi 23 aydan sonra bizi kölə edə bildilər.

Nə isə, bu dövrləri çox sadalamaq fikrim yoxdur, zatən hamıya gün kimi məlumdur. Əsas məsələyə gəlib çıxmaq istəyirəm . Əsas məsələ isə bundan ibarətdir ki, bu dövrdə də pul yığmaq dövrün əsas dəbidir deyək, dərdidir deyək, bilmirəm, amma pul yığmaq məsələsi bəzi insanların gecəli-gündüzlü amalıdır. Yəqin şahidi olmayan yoxdur ki, neçə-neçə pul yığanlar gördük.




Bəzi vəzifədə olanlar gördük ki, vəzifəyə təyin olunan kimi işini-gücünü ötürüb başladı ancaq pul yığmağa. Bir gün soruşulanda ki, bəs sən bu vəzifədə nə iş görmüsən? Baxdıq ki, pul yığmaqdan başqa heç nə etməyib. Axı pul yığmağın da bir ədəbi, bir qaydası olmalıdır. Nə olar ki, pul yığanda. Bütün dövrlərdə məgər pullu adamlar olmayıb, olub. Bunun şahı olub, xanı, bəyi, vəziri, vəkili, taciri olub. Pullu olublar. Bəli, pul yığıb pullu olublar.İndi bəs nə üçün pul yığmaq istəyənləri qınamalıyıq. Əcəba onlar pullu ola bilməzlər? Bilərlər, lakin məsələ ayrı məsələdir.

Bir adamın neçə evi olmalıdır? Deyəcəksiniz ki, bir evi olsa, bəsdir də. Nə edəcək, adam bir evdə yaşayır da. Desək ki, iki evi olsun, anda da qayıdıb deyəcəksiniz ki, iki evi bir adam nə edir? Yaxşı, bir adamın neçə maşını olmalıdır? Hamı bir ağızdan deyəcək ki, biri bəsdir də. İkincini kim sürəcək? Yaxşı, bununla da razıyıq. Amma gəlin bir görək, bunu deyən adam bir vəzifəyə gedəndən sonra da belə düşünəcəkmi?

* * *

Həsənqulu dünənədək sadə bir oğlan idı. Bir evi, bir maşını vardı. Başını salıb aşağı dolanırdı bir təhər. Bir gün Allahı gətirdi, getdi vəzifəyə. Vallah özləri gizlətdilər. Amma yerin də qulağı var, yerdən səs gəldi ki, bu adam durub-dayanmaq bilmir. Evdir ki, alır, maşındır ki, alır, puldur ki, yığır.

Məmmədqulu da dünənədək bir evli, bir maşınlı oğlanlardan idi. Günlərin bir günü getdi vəzifəyə. Aradan bir il keçmədi, Məmmədqulunun yerişi də dəyişdi, əyni-başı da, maşını da. Evinin ətrafına bir hasar çəkdi ki, oradan ha boylan ki, görə biləsən ki, içəridə nə var. Ay gördün, ay.

Hüseynqulu lap dəyişdi ey. Vəzifə bu adamı elə elədi ki, ta qonşularla salamını da kəsdi. Vallah yalan, doğru deyirlər, pul-pənəsini buralara etibar etmir, xarici banklarda saxlayır. Deyirlər, 10-dan çox evi var. Nəcəfqulu arıq bir oğlandı. Elə ki, vəzifəyə keçdi, vəzifə buna düşdü, həm də necə düşdü. Nəcəfqulu oldu 100-150 kiloqram, bəlkə də yanılıram, bundan da çox. Həm də deyirlər, adam yaman pul yığıb.

Hələ Rzaqulunu demirəm, bizim kimi sadə bir adamıydı da. İndi gəlin, baxın. Vəzifəyə getdi, həyatı dəyişdi. Evini deyək, maşınını deyək, dolanışığını deyək, hansını deyək? Pula da pul demir. Dünənədək arvad uşağı Sədərək bazarından yığılmırdı, indi "Mall"ardan çıxmırlar.

Əşi, özləri bilər ey, yığsınlar, xərcləsinlər. Bal tutan barmaq yalayacaq da. Bunu atalar deyib, biz uşaq-muşaq deməmişik ki. Amma başqa məsələ maraqlıdır ey. Səhərdən bəri mətləbə gəlmək üçün yola çıxmışam. Şükür, deyəsən gələ bildim.

Mətləb budur ki, ay qardaş, sənə bu vəzifəni verməyiblər ey, talançılıqla məşğul olasan. Birinci ona görə veriblər ki, iş görəsən, bir işə, əməlı yarıyasan. İkinci, başqalarından fərqləndirildiyin üçün qanadların yanında dura, göylərə avaz eyləməyə. Amma çox halda belə deyil axı. Elə ki, vəzifə başına keçildi, məqsəd dəyişir. Adam başlayır pul yığmağa. Yığır, yığır, yığır, deməli, bu pul ailəni aşır, övladı aşır, nəvələri aşır, nəticələri aşır, kötücələri aşır, yadıcaları ( yadlaşmaqda olan nəsil) da aşır, lakin adam durmur. Eşidirsən ki, milyonları mənimsəyib, lakin gözü hələ də doymayıb.

Deyirəm, haradan alım Molla Nəsrəddini, gələ bunlara bir az ağıl-hüş verə. Deyə ki, ay yazıqlar, dayanın, özünüzü biabır etməyin. Gözünüz doysun, nə edirsiniz? Bu qədər yetər. Vallah, heç qədrinizi övladınız bilməyəcək. Pulunuzu elə sovuracaq göylərə ki, baxıb görəcəksiniz ki, oba köçüb, yurdu qalıb. Nəvələriniz xərcləyəcək, amma inanın, bicə dəfə sizə rəhmət oxumayacaqlar. Nəticələriniz üzünüzü görə, ya görməyə. Xərcləyib, heç sizi əsla anmayacaqlar. Qaldı kötücəyə, yadıcalara, vallah, onlardan yana bu qədər həyəcana, qorxuya dəyməz. Çünki bu pulun axır-uxuru onlara çatacaq, az olduğu üçün hələ bir kəllənizi də söyəcəklər.

Hə, bu pul məsələsi elə bir məsələdir ki, ağıl istəyir, bir düşünəsən görəsən, nəyə lazımdır bu qədəri? Ağıl da, belədir ki, Allah hamıya vermir. Bu səbəbdən də pulu yığırıq yığa bildikcə. Biabır olmaq anında isə vicdansız pul gəlib bizi əsla xilas edə bilmir. Niyə də gəlsin ki? Oturub da oturduğu yerdə. Ağır otur, batman gəl, misalı... Pul məsələsi, bax, belə məsələdir.

***Mətanət Məmmədova***



Elçin Bayramlı

# Yaşlı müəllimlər nazirə niyə və necə mane olur?

***Son dövrlərdə Azərbaycanda təhsil sistemi tənəzzül keçirir. Xüsusən də, orta təhsil artıq acınacaqlı vəziyyətə gəlib. Bunu görmək üçün məktəbdaxili və ali məktəblərə imtahanların nəticələrinə baxmaq kifayətdir. Məktəblərin hələ özünə inanan, ali məktəbə imtahan verən məzunları belə 1-2 qiymətə cavab verirlər. Yəni, 100-200-300 bal toplayırlar. Lakin problem təkcə bu da deyil.***

Son vaxtlar məktəblərdə baş verən və sosial şəbəkələrdə geniş müzakirələrə səbəb olan biabırçı hadisələr isə məktəbin artıq müqəddəs məbəd statusunu itirdiyini, müəllim nüfuzunun məhv edildiyini, şagirdlərə hər cür tərbiyəsizlik hüququnun tanındığı heç nəyə yaramayan formal bir binaya çevrildiyini aydın göstərir.

Bu istiqamətdə əsas problem müəllim nüfuzunun sındırılması ilə başladı. "Şagird yönümlü təhsil sistemi həyata keçiririk", kurrikulum sistemi tətbiq edirik" deyə-deyə müəllimin bütün səlahiyyətlərini, şagirdlərin tərbiyəsinə nəzarət funksiyasını əlindən aldılar, onu sadəcə dərsi izah edən maketə çevirdilər. Valideynləri tərəfindən tərbiyə almamış çox sayda şagird isə onlar üçün yaradılmış bu gözəl fürsətdən necə lazımdır istifadə etdilər və müəllimi söyməkdən, döyməkdən tutmuş ən rəzil hərəkətlərə qədər imza atdılar. Belə tərbiyəsiz uşaqları tənbeh etməyə çalışan müəllim isə dərhal işdən çıxarıldığından digər müəllimlər artıq şagirdlərin belə həyasızlığına göz yummağa məcbur oldular. Nəticədə məktəblər dəlixanaya döndərildi.

Nazirliyin əsas xidmətlərindən biri də kişi müəllimlərin məktəblərdən didərgin salınması idi. Bunun üçün mümkün olan hər şeyi etdilər. İndi məktəblərimiz qadın seminariyasına dönüb, kişi müəllim tapılmır. Kişi müəllimlərin olmadığı bir yerdə yuxarı sinif oğlanlarının hegemonluğu qaçılmazdır. Qadın müəllimlər isə qorxularından onlara bir söz deyə bilmirlər.

İndi həmin bu nazirlik "proqram"ın əsas mərhələsinə keçib- yaşlı müəllimlərin məktəblərdən didərgin salınmasına. Cənab nazirin heyrətamiz açıqlamalarına görə, yaşlı müəllimlər çox savadsız imiş və təhsilə zərər vururmuş. Ona görə də min bir bəhanə ilə onları uzaqlaşdırmaq lazım imiş. Faktlar isə tam əksini göstərir. Kiçik istisnaları çıxsaq, heç vaxt dünənin gənc məzunu 20-30-40 il təcrübəsi olan müəllimdən daha savadlı, daha dünyagörüşlü, daha təcrübəli ola bilməz. Sadəcə nazirliyin məqsədi başqadır. Köhnə müəllimlər əsasən mühafizəkar olurlar, onlar təbliğ olunan yad dəyərlərə yiyələnməyi rədd edib, öz milli-mənəvi dəyərlərimizə sadiq qalırlar. Uşaqları da milli ruhda, əxlaqi kriteriyalar üzrə tərbiyə etməyə və ənənəvi qaydada təhsil verməyə çalışırlar. Nazirliyə görünür bu sərf etmir, ona görə də onları didərgin salmaq lazımdır. Halbuki, həmin bu nazirə dərs deyən müəllimlər yaşlı müəllimlər olub. Əgər onlar yaxşı müəllim olmasaydı, indi o, nazir ola bilməzdi.

Təhsilin məhv olmasının daha bir səbəbi də ağır tədris proqramı ilə bağlıdır. Lazımsız biliklərlə doldurulmuş, "filankəsin qohumudur" prinsipi ilə savadsızlara yazdırılmış çox sayda dərsliklər, iş dəftərləri və sair materiallarla şagirdi silahlandırmaq ilk növbədə onun belini qırır. Çünki bu ağırlıqda çantanı heç valideyn daşıya bilmir. Məhz buna görə həkimlər deyir ki, uşaqların çoxu skalyozdur. Üstəlik, ağır dərs proqramı və ev tapşırıqları uşaqları zehni cəhətdən də həddən artıq yükləyir və nəticədə onlar aqressivləşir, məktəbə, dərsə nifrət edirlər.

Son onillərdə təhsilimizin başında aparılan əcaib eksperimetlər, tətbiq olunan metodlar təhsili də məhv etdi, tərbiyəni də, məktəbi də.Məktəblərdəki saysız-hesabsız problemləri müəllimlər, valideynlər, jurnalistlər deməkdən, yazmaqdan yorulub, amma nazirlik bunları heç vecinə də almır, yenə öz bildiyini edir və vəziyyəti daha da ağırlaşdırır.

Məktəblərlə bağlı çox sayda ciddi problemlər var ki, Elm və Təhsil Nazirliyi nəinki onları həll etmir, əksinə özünün səhv siyasəti ilə problemi daha da ağırlaşdırır. Qalan məsələlər haqda da növbəti yazımızda danışacağıq.



*Mənfi təsirlərə məruz qalan və milli-mənəvi dəyərlərlə böyüməyən gənclik gələcəkdə nəticə etibarilə, ilk növbədə, həmin xalqın, dövlətin özü üçün problemlər yaradır. O xalq, o cəmiyyət ki, gəncliklə məşğul olmur, onun gələcəyi yox səviyyəsindədir. Məhz bu səbəbdən Azərbaycanda gənclər siyasəti çox yüksək səviyyədə həyata keçirilir.*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Gənclər siyasəti uğurla davam etdirilir

*Azərbaycanın gələcəyini ziyalı, vətənpərvər və müasir dünyagörüşlü gənclərə etibar etmək olar - Heydər Əliyev*

Hələ ötən əsrin 70-ci illərində Heydər Əliyev respublika rəhbərliyində və SSRİ rəhbərliyində təmsil olunanda gənclər siyasətinə xüsusi diqqət verirdi. Azərbaycanlı gənclərin SSRİ-nin ən nüfuzlu ali məktəblərində təhsil alması, irəli çəkilməsi istiqamətində böyük işlər görülürdü. Sovet İttifaqı dağıldıqdan sonra respublikamız ağır sosial-iqtisadi



vəziyyətə düşmüşdü. Müharibə, aclıq, yoxsulluq, xoas baş alıb gedirdi. Dövlət faktiki olaraq iflic idi. Belə bir şəraitdə heç bir gənclər siyasətindən söhbət gedə bilməzdi. Lakin 1993-cü ildə ümummilli lider Heydər Əliyevin yenidən Azərbaycan rəhbərliyinə gəlməsi bu məsələlərin öz həllini tapması ilə nəticələndi. Gənclərin problemlərinin həlli sahəsində tədbirlərin görülməsi, onların öz imkan və bacarıqlarını reallaşdıra bilmələri üçün şəraitin yaradılması Azərbaycan dövlətinin fəaliyyətinin ən mühüm istiqamətlərindən birinə çevrildi.

Gənclər və İdman Nazirliyinin yaradılması, gənclərin ümumrespublika forumlarının keçirilməsi, 5 dövlət proqramının qəbul edilməsi, 1999-cu il iyulun 29-da Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Dövlət gənclər siyasəti haqqında" fərmanın imzalanması və geniş fəaliyyət proqramının təsdiq edilməsi Azərbaycan Respublikasında gənclərlə işə xüsusi əhəmiyyət verildiyini göstərir.

Bundan başqa ümummilli lider Azərbaycan gəncliyinin yüksək keyfiyyətlərə malik olmasına çalışır və müxtəlif çıxışlarında və yazılarında bunun əsas istiqamətlərini gənclərə göstərirdi. 2002-ci ildə ümummilli lider Heydər Əliyev tərəfindən "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildikdən sonra bu yöndə çox mühüm işlər həyata keçirildi.

Ulu öndərin Azərbaycan xalqına ən böyük xidmətlərindən biri də onun gələcəyimizə verdiyi töhfələrdir. Heydər Əliyevin elmə, təhsilə, mədəniyyətə və sair sahələrə göstərdiyi qayğı öz bəhrələrini verib. Ümummilli liderimiz daim məktəbliləri, tələbələri, ümumiyyətlə, yeniyetmə və gəncləri diqqətdə saxlayıb, onların inkişafı üçün əlindən gələni edib.

Heydər Əliyev Azərbaycan gəncliyini müdafiə etməklə xalqın gələcəyini təmin etdi. Bu gün ölkəmizdə bütün gənclərin və yeniyetmələrin bir arzusu var - yaxşı təhsil almaq, vətənə layiqli övlad olmaq və xalqımızın gələcəyi üçün əlindən gələni etmək. Bu, xalqımızın ümummilli lideri Heydər Əliyevin gənc və yeniyetmələrdən əsas tələbi idi.

Bugünkü müstəqil dövlətçiliyimizin üzərində bərqərar olduğu dayaqlarından biri də Azərbaycan gəncliyidir. Gənclərimizin əsl Azərbaycan vətəndaşı kimi formalaşmasında, ümummilli lider Heydər Əliyevin danılmaz əməyi, misilsiz xidmətləri var. Ulu öndərin zəngin və möhtəşəm dövlətçilik fəaliyyətində gənclər siyasəti hər zaman xüsusi yer tutub.

Qeyd edək ki, 1996-cı ildə Prezident Heydər Əliyevin sərəncamı ilə 2 fevral - Azərbaycan Gəncləri Günü kimi təsdiq olunub. Bu, Heydər Əliyevin gəncliyə göstərdiyi diqqət və qayğının bir nümunəsi idi. Gənclər günü MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda qeyd olunub.

1996-cı ildən başlayaraq Azərbaycanda Gənclər Günü qeyd olunandan sonra digər MDB ölkələrində və Şərqi Avropa dövlətlərində də bu gün qeyd olunmağa başladı. Azərbaycanda hər il Gənclər Günündə bütün istiqamətlər üzrə fəaliyyət göstərən gənclər yekun hesabat verirlər. Dünyada yalnız 1999-cu ildə BMT-nin qərarı ilə avqustun 12-si Gənclər Günü elan edilib.

Heydər Əliyev ölkədə gənclər siyasətinin düzgün aparılmasını çox önəmli hesab edərək deyirdi: "Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, gəncləridir. Çünki Azərbaycan Prezidenti kimi mən də bu gün Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi isə Azərbaycanın gənclərindən və uşaqlarından asılıdır."

Ulu öndərimiz deyirdi: "biz dövlətin və cəmiyyətin idarə edilməsində gənc nəslin qüvvəsinə arxalanacaq, onların imkanlarından maksimum istifadə edəcəyik". Müasir Azərbaycanın memarı Heydər Əliyev Azərbaycan gənclərinə inanırdı və O, 1998-ci ildə ölkə gəncləri ilə görüşündə bunu dilə gətirərək demişdi: "Əziz övladlar! Sizin kimi gəncləri olan, gələcəyi olan Azərbaycan basılmazdır, sarsılmazdır! Məni hədsiz sevindirən odur ki, Azərbaycanın gələcəyini möhkəm əllərdə saxlaya bilən, Azərbaycanı daim bütün bəlalardan qoruya bilən, Azərbaycanın dövlət müstəqilliyini, demokratik dövlətini qoruya bilən gəncliyi var. Bunlar sizlərsiz, əziz övladlar!"

Heydər Əliyevin rəhbərliyi ilə təhsil ocaqlarında gənclərin bilik qazanması üçün yüksək şərait yaradılıb. Dövlət vəsaiti hesabına müasir məktəblər tikilib, tədris müəssisələri kompüterlərlə təchiz edilib.



Ümummilli gənclərin sağlam yetişdirilməsini belə təsvir etmişdir: "Gənclərin ləyaqətli vətəndaş kimi yetişməsi üçün onlar hərtərəfli biliyə, milli keyfiyyətlərə malik olmalıdırlar. Öz dili, mədəniyyəti, mənəvi dəyərləri ilə tərbiyə olunmuş gənclər hec vaxt vətəninə, xalqına ögey münasibət bəsləməz. Gənclərimiz milli ruhda tərbiyə olunmalı, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidirlər. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, kecmişimizi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir".

Milli dəyərlərin, milli adət-ənənələrin zəruriliyi mərhum Heydər Əliyevin məruzə və cıxışlarında həmişə qürurla söylənilirdi. Heydər Əliyev göstərirdi ki, milli-mənəvi dəyərlər xalqın mənəvi sərvəti, mənəvi xəzinəsidir, bu sərvətə, xəzinəyə biganə olmaq cinayətdir. Son illərdə xalqımızın milli adət-ənənələrinə biganəlik halları haqlı olaraq xalqın, xüsusilə ziyalıların etirazına səbəb olmuşdur. Bu etiraz və narazılıqlar haqqında mətbuatda cıxışlar milli-mənəvi dəyərləri qorumaq cağırışına cevrildiyi bir vaxtda ümummilli liderimiz Heydər Əliyev bir sıra məqamlara aydınlıq gətirmiş, görüləcək işlərin perspektivini müəyyənləşdirmişdi: "Fürsətdən istifadə edərək, bir-iki məsələyə toxunmaq istəyirəm. O da ondan ibarətdir ki, biz öz dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu sınaqlardan kecmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik. Hər xalqın öz mentaliteti var. Bizim Azərbaycan xalqının mentaliteti onun böyük sərvətidir. Hec vaxt iki xalq bir-birinə bənzəməz. Hec vaxt iki xalq bir-birinə bənzər dəyərlərə malik ola bilməz. Yenə də deyirəm, hər xalqın özünə, öz tarixi köklərinə, ecdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək, xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək, gənc nəsli daha da sağlam əhval-ruhiyyədə tərbiyələndirməliyik".

Qürurla demək olar ki, bu gün Azərbaycan gəncliyi üzərinə götürdüyü vəzifənin öhdəsindən layiqincə gəlməyə çalışır və bunu bacarır: onların uğuru beynəlxalq konfranslardan, dövlət və hökumət qurumlarından, intellektual bilik yarışlarından eşidilir. Azərbaycan həqiqətlərini- musiqisini, ədəbiyyatını, rəqsini, folklorunu, mətbəxini, milli-mənəvi dəyərlərini dünyanın müxtəlif ölkələrində təbliğ edən gənclər, bütün səy və bacarığı ilə dövlətçilik ənənələrimizi tanıdaraq, dünya ictimaiyyəti tərəfindən sevilməsinə nail olur.

Məhz ulu öndərimizin müəyyənləşdirdiyi, Prezidentimiz İlham Əliyevin davam etdirdiyi siyasət nəticəsində gənclər cəmiyyətdə bu gün öz yerini tutur. Ölkəmizdə yeni iş yerlərinin açılması, tələbə gənclərin təqaüdlərinin və gənclərin xarici ölkələrdə təhsil imkanlarının artırılması dövlətimizin gənclərlə bağlı siyasətinin əsas istiqamətləridir.

Təsadüfi deyil ki, müasir gənclər də öz fəaliyyətlərini cəmiyyətin geniş təbəqələrində ümummilli lider Heydər Əliyev ideyalarının ölməzliyinə və həmişəyaşarlığına olan möhkəm inamın daha da dərinləşməsi istiqamətində qurur, bu istiqamətdə mühüm işlər görürlər. Gənclər ölkənin ictimai-siyasi həyatında fəal iştirak edir, dövlətimizin yeritdiyi siyasətin həyata keçirilməsində öz töhfələrini verirlər. Azərbaycanın işğal edilmiş ərazilərinin düşməndən azad edilməsində gənclərimiz çox böyük rol oynadı.

Prezident İlham Əliyev gəncləri aparıcı qüvvəyə çevirmək və onların sosial-iqtisadi problemlərinin həllini təmin etmək məqsədilə böyük işlər görür. Dövlət quruculuğunda gənclərin iştirakına şərait yaradılması, gənc ailələrə kömək göstərilməsi, hüquqlarının qorunması, sosial problemlərin həlli, gənclərin hərbi vətənpərvərlik tərbiyəsi onun fəaliyyətinin əsasını təşkil edir.

Bu gün ölkəmizdə gedən proseslər göstərir ki, Heydər Əliyevin əsasını qoyduğu Prezident İlham Əliyevin uğurla davam etdirdiyi "böyük gələcək" siyasəti, artıq öz bəhrələrini verir. "Səs" qəzeti olaraq biz də bütün Azərbaycan gənclərini 2 Fevral- Gənclər Günü münasibətilə təbrik edir, onlara ölkəmizin gələcəyi uğrunda apardıqları bütün işlərdə uğurlar arzulayırıq.

**Elçin Bayramlı**

SON SƏHİFƏ

SƏS

2 fevral
2023-cü il

# ƏDV-nin geri alınması hansı mənzillərə şamil olunur?

***ƏDV-nin təsisçisi Fransa iqtisadiyyat, maliyyə və sənaye nazirliyinin direktoru Moris Loret hesab olunur. Avropa ölkələrində bu verginin təsiri 1900-cü illərdən başlayır. Müsbət testlərdən sonra layihə vergisi effektiv hesab edilir və 4 ildən sonra rəsmi olaraq vergi sisteminə daxil edilir.***



ARAŞDIRMA

ƏDV-nin geri qaytarılması istər yaşayış, istərsə də qeyri-yaşayış sahəsinə aid olan əmlak nağdsız şəkildə alındıqda tətbiq olunur. Müasir dövrdə əmlak satışı banklar vasitəsilə həyata keçirilir. Bu zaman vəsaitin geri qaytarılması təqdim edilmiş elektron qaimə-faktura üzrə əmlakın qiymətindən (ƏDV ilə birlikdə) asılı olmayaraq tətbiq edilir. Geri qaytarılan vəsait alıcının bank hesabına köçürülür. Bununla da alıcının ödədiyi vəsaitin bir hissəsi ona geri qaytarılmış olur.

Nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələri üçün ödənilmiş əlavə dəyər vergisinin (ƏDV) bir hissəsinin qaytarılması ilə bağlı elektron qaimələrin tərtib edilməsi və alıcılar tərəfindən müraciətlərin olunması üçün portal istifadəyə verilib.

### Bəs yeni tikilmiş binalardan mənzil alarkən ƏDV-nin qaytarılması həyata keçirilirmi?

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Dövlət Vergi Xidmətindən bildirilib ki, "Fiziki şəxs olan istehlakçılar tərəfindən Azərbaycan Respublikasının ərazisində bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Şərtləri və Qaydası" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 25 may tarixli Fərmanı ilə təsdiq edilmişdir. Burada fiziki şəxs olan istehlakçılar tərəfindən Azərbaycan Respublikası ərazisində bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş əlavə dəyər vergisinin bir hissəsinin qaytarılması ilə bağlı MTK tərəfindən e-qaimələrin tərtib edilməsi və alıcılar tərəfindən müraciətlərin edilməsi üçün İnternet Vergi İdarəsində müvafiq portal da yaradılıb. Qeyd edək ki, portal 2022-ci il 21 noyabrdan istifadəyə verilib.

Onu da bildirək ki, ƏDV bir hissəsi alınmış yaşayış və qeyri-yaşayış sahələrinin dəyəri nağdsız qaydada satıcıya tam şəkildə ödənildiyi halda qaytarılır.

Qaytarılacaq ƏDV məbləği müvəkkil bank tərəfindən bank əməliyyatlarının aparılmasına görə xidmət haqları çıxılmaqla alıcıya 30 iş günü müddətində müvəkkil bank vasitəsilə qaytarılır.

Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin sədri, "VECON CONSULTING " qiymətləndirmə şirkətinin direktoru Vüqar Oruc: "Vətəndaş kabinetə müraciət edir və bu müraciətə 10 gün ərzində baxılır, nəsə səhv olacaqsa geri göndərilir, səhvlər düzəldilir və 5 gün ərzində cavab verilir. Bundan sonra müvafiq alqı-satqı olubsa o bank məsələyə müdaxilə edir. Həmin bank vasitəsilə ƏDV geri qaytarılır. Burada tam həmin faizdən söhbət getmir, çünki 0,1 faiz bank xərcləri də çıxır və yerdə qalan məbləğ vətəndaşın hesabına köçürülür".

Havar Şəfiyeva




# "Çelsi" 121 milyon avroya futbolçu transfer etdi!

İngiltərənin "Çelsi"futbol klubu "Benfika"nın futbolçusu Enzo Fernandeşi heyətinə qatıb. Qol.az xəbər verir ki, bu, İngiltərə tarixinin ən bahalı transferi kimi tarixə düşüb. Bu haqda Portuqaliya Qiymətli Kağızlar Bazarı Komissiyasının saytında məlumat verilib. "Çelsi" Argentina millisinin üzvünün keçidinə görə qarşı tərəfə 121 milyon avro ödəyib.

22 yaşlı yarımmüdafiəçi ilə 2031-ci ilin yayınadək müqavilə imzalanıb. Transfer "Benfika" tərəfindən təsdiqlənib.

# "Hər kəs psixoloji sarsıntı keçirə bilər"



"Hər kəs gün ərzində psixoloji sarsıntı keçirə bilər. Bu insanın xarakterindən, onun temperament tipindən asılıdır. İnsanın dünyagörüşü, intellekti də onun düşüncələrinə və hərəktlərinə müəyyən dərəcədə öz təsirini göstərir. Eyni zamanda ailədə gördüyü tərbiyə, müxtəlif situasiyalarda verdiyi reaksiyalar da insanın psixologiyasına birbaşa təsir göstərir. Bu sözləri SİA-ya açıqlamasında psixoloq Gülər Məmmədova bildirib.

Onun sözlərinə görə, hər kəs psixoloji sarsıntı keçirir: "Lakin hər insanın bu prosesə verdiyi reaksiya fərqlidir. Bu fərqli reaksiyalar isə sadaladığım səbəblər nəticəsində ortaya çıxır.

Psixoloji sarsıntı keçirmək əslində həyatımızda müdafiə metodu kimi də dəyərləndirilə bilər. Bu dövr hər kəsdə müxtəlif cür cərəyan edir. Eyni zamanda psixoloji sarsıntı zamanı etdiklərimiz yaş və həyat təcrübəsindən də asılı olur. Buna görə də bir çox insanlar bu dövrü çox çətin keçirdiyi halda, bəziləri yaşadıqlarından dərs götürməklə kifayətlənir və həyatlarına davam edirlər".

*Səbinə Hüseynli*

# Dayə ixtisası üzrə təhsil sənədi veriləcək

***Təhsildə Keyfiyyət Təminatı Agentliyi "Dayə" ixtisası üzrə formal təhsilə çıxış imkanı məhdud olan vətəndaşlar üçün təhsil sənədi əldə etmək imkanı yaradır. TKTA-dan SİA-ya verilən məlumata görə, sözügedən ixtisas üzrə təhsil sənədi olmadan fəaliyyət göstərən dayələr səriştələrinin tanınması məqsədilə keçirilən imtahanlarda iştirak edə bilərlər.***



Ərizəçilər bunun üçün müraciət qaydaları, tələb olunan sənədlər və imtahan barədə ətraflı məlumat yerləşdirilmiş keçiddən istifadə edə və imtahanlarda iştirak etmək üçün qeydiyyatdan keçərək tələb olunan sənədləri qfitt@tkta.edu.az ünvanına göndərə bilərlər. Məlumat üçün qeyd edək ki, qiymətləndirmə nəticəsi müsbət olan müraciətçiyə müvafiq modul üzrə Sertifikat təqdim ediləcək.

**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3600